# Taxıl dəhlizi işə başlayacaq

## İstanbulda Birgə Koordinasiya Mərkəzinin açılışı olub




**Ötən həftə İstanbulda imzalanmış taxıl dəhlizi haqqında saziş çərçivəsində yaradılan Birgə Koordinasiya Mərkəzinin açılış mərasimi keçirilib.**

Trend xəbər verir ki, birgə mərkəz İstanbulda Milli Müdafiə Universitetində fəaliyyət göstərəcək. Mərkəzin işində Türkiyə, Rusiya və Ukrayna təmsilçiləri ilə yanaşı, BMT nümayəndələri də yer alacaq.

Koordinasiya mərkəzinin açılışında iştirak edən Türkiyənin milli müdafiə naziri taxıl dəhlizi vasitəsilə Ukrayna limanlarında qalmış 25 milyon tondan çox taxılın təhlükəsiz daşınmasına imkan yaranacaq.



# Kəlbəcərdə minaya düşən polkovnikin ayağı amputasiya edilib

## Vüqar İsbəndiyarovun vəziyyəti stabildir

**Ötən gün Kəlbəcərdə minaya düşən Azərbaycan Ordusunun N saylı hərbi hissəsinin komandiri, polkovnik Vüqar İsbəndiyarovun son durumu açıqlanıb.**

Gəncədə hospitala yerləşdirilən zabitin sol ayağı amputasiya edilib, sağ ayağında isə çox saylı qırıqlar var.

(səh.2)

❐ № 131 (5653), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 iyul 2022-ci il (cümə axşamı)




# Azərbaycan yığması Ermənistanı məğlub edib

## Bununla da komandamız ardıcıl 3-cü qələbəsini qazanaraq, 6 xalla qrup liderliyinə yüksəlib

**18 yaşadək oğlan basketbolçulardan ibarət Azərbaycan milli komandası Avropa çempionatının C liqasında növbəti oyununu keçirib.**

Apasport.az bildirir ki, Tahir Baxşiyevin rəhbərlik etdiyi yığma San Marinoda keçirilən yarışda Ermənistanla üz-üzə gəlib.

Oyun basketbolçularımızın inamlı qələbəsi ilə başa çatıb. Millimiz erməniləri 76:65 hesabı ilə məğlub edib.

Bununla da komandamız ardıcıl 3-cü qələbəsini qazanaraq, 6 xalla qrup liderliyinə yüksəlib. Təmsilçimiz Ermənistan yığmasından öncə Lüksemburqa (75:71) və Cəbəllütariqə (115:60) hesabı ilə qalib gəlib.

*Qeyd edək ki, milli qrupdakı növbəti matçını Moldova komandasına qarşı keçirəcək. Oyun iyulun 28-də Bakı vaxtı ilə saat 14:30-da start götürəcək.*



# Türkiyə Milli Müdafiə Nazirliyi bəyanat yayıb

## “Regionu qana boyamaq istəyənləri qazdıqları quyuya basdıracağıq”

**Türkiyənin Milli Müdafiə Nazirliyi Türkiyənin İraqın Mosul şəhərində yerləşən Baş Konsulluğuna hücumla bağlı bəyanat yayıb.**

”Report” xəbər verir ki, bu barədə nazirliyin tviter hesabnda paylaşım edilib.

Bildirilib ki, İraqdakı səlahiyyətli şəxslər diplomatik nümayəndələrin təhlükəsizliyi üçün hər cür qabaqlayıcı addımı atmalıdır: ”Mosuldakı Baş konsulluğa hücum nəticəsində kimlərin mülki şəxsləri hədəf aldığını bir daha gördük. Hücumu təşkil edən terrorçular tez və ya gec buna görə cavab verəcəklər. İraqlı qardaşlarımızla terrorla mübarizə və sərhəd təhlükəsizliyi üçün əməkdaşlığa hazırıq”.

Bəyanatda, həmçinin qeyd olunub ki, terrorçular törətdikləri əməllərə görə məsuliyyət daşıyırlar: ”Onların hiylələrini alt-üst edəcək, regionu qana boyamaq xəyalları ilə birlikdə onları qazdıqları quyuya basdıracağıq”.

# "Facebook" istifadəçisi həbs olundu

## Baş Prokurorluq saytlara və sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib




Son günlər bəzi sosial media istifadəçiləri tərəfindən Azərbaycan Ordusunun işgüzar nüfuzuna xələl gətirmək, vətəndaşlar arasında süni ajiotaj yaratmaq, eləcə də dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görüln işlərə kölgə salmaq məqsədilə həqiqətə uyğun olmayan informasiyalar tirajlanıb.

(səh.2)

# Ərdoğan Putini razılığa gətirəcək

## Qarabağdan erməni hərbi birləşmələrinin çıxarılması məsələsinə Kreml yaşıl işıq yandıracaq



**Rusiya Prezidenti Vladimir Putin və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan avqustun 5-də Soçidə görüşəcək.**

Rusiyanın Türkiyədəki səfiri Aleksey Yerxov ”Rossiya-24” kanalına açıqlamasında bildirib ki, liderlər görüş zamanı Ukrayna, Qara dəniz regionu və Suriyadakı vəziyyət də daxil olmaqla, geniş mövzuları müzakirə edə bilər. Yerxov əlavə edib ki, görüşün mövzularını prezidentlər özləri müəyyən edəcək.

*Liderlərin gözlənilən görüşü ilə bağlı ”Şərq”ə danışan politoloq Məhəmməd Əsədullazadə xatırladıb ki, iyulun 19-da Suriya məsələsi üzrə Tehranda keçirilən konfranda tərəflər razılığa gələ bilmədi.*

(səh.3)

# "Hər zaman kimin artıq pulu varsa repetitor yanına gedəcək"

## Təhsil naziri: ”Çünki bizdə əsas kimdənsə yaxşı olmaqdır. Özünün yaxşı olmasına baxan yoxdur”



**Təhsil naziri Emin Əmrullayev media üçün keçirdiyi brifinqdə müəllimlərin sayının çox olması ilə bağlı fikirlərə münasibət bildirib:**

”Biz müəllimi bütün ölkə üçün hazırlayırıq. Hesabımızı bütün ölkə üçün götürürük. Çünki bizə ən kiçik kəndimizdə belə müəllim lazımdır. Müəllimlər isə öz evlərinə yaxın işləməyə üstünlük verir. Bizim hazırladığımız müəllim sayı vakansiyalarımızdan bir qədər çox olur.

(səh.5)



# Avropa İttifaqı Ermənistana 14,2 mln. avro qrant verib

**Avropa İttifaqı Ermənistana 14,2 milyon avro qrant verib.**

”Report”un xəbərinə görə, bu barədə Ermənistan Baş nazirinin müavini Mger Qriqoryanın müşaviri Mane Adamyan bildirib.

Onun sözlərinə görə, bu məbləğin 6 milyon avrosu baş nazirin müavininin ofisi tərəfindən pandemiyanın nəticələrinin aradan qaldırılmasının reallaşmasına və ölkənin sosial-iqtisadi dayanıqlılığının güclənməsinə yönəldiləcək. O qeyd edib ki, bu, ikitərəfli qrantlar proqramı çərçivəsində köçürülən sonuncu tranşdır.

Avropa İttifaqı sözügedən layihə çərçivəsində son iki ildə Ermənistana 30 milyon avro ayırıb.

# 2 nəfər ölüb

## Son sutkada 399 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 399 yeni yoluxma faktı qeydə alınıb, 271 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 2 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 797 281 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 785 437 nəfər müalicə olunaraq sağalıb, hazırda 2 103 aktiv xəstə var. Bu günə qədər 9 741 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 543, bu günə qədər isə ümumilikdə 7 033 280 test icra olunub.

# Balakəndə kişi 21 yaşlı arvadını qətlə yetirib



**Balakəndə kişi 21 yaşlı arvadını qətlə yetirib.**

Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, iyulun 27-də Balakən rayon sakini, 2001-ci il təvəllüdlü Əbdürəhmanova Emilya Məzahir qızının bıçaqla qəsdən öldürməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Aparılan araşdırmalarla zərərçəkmişin əri, 1995-ci il təvəllüdlü Elton Layicovun qısqanclıq zəminində arvadına bıçaq xəsarətləri yetirərək öldürməsinə əsaslı şübhələr müəyyən olunub.

*Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.*

*Elton Layicov şübhəli şəxs qismində tutulub.*



# "Hərbi əməliyyatlara başlamaq tezdir"

Turab Rzayev: ”Bunun üçün ən azından Ukrayna-Rusiya müharibəsinin nəticəsini gözləmək lazımdır”

(səh.2)

# "Kampaniya bütün alimlərə qarşı aparılır"

Fərhad Cabbarov: ”Televiziyanın sıravi bir adamın “Akademiyada heç bir iş görmürlər, bütün günü domino oynayırlar” fikrini efirə verməsi etik cəhətdən düzgün deyil”



(səh.4)

# "Facebook" istifadəçisi həbs olundu

## Baş Prokurorluq saytlara və sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib




**Son günlər bəzi sosial media istifadəçiləri tərəfindən Azərbaycan Ordusunun işgüzar nüfuzuna xələl gətirmək, vətəndaşlar arasında süni ajiotaj yaratmaq, eləcə də dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görüln işlərə kölgə salmaq məqsədilə həqiqətə uyğun olmayan informasiyalar tirajlanıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən "Şərq"ə bildirilib ki, ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının pozulmasına yönələn halların qarşısının alınması üçün bu cür hərəkətlərə yol verən şəxslər Baş prokurorluğa dəvət olunub, onların barələrində prokuror təsir tədbirləri görülüb.

Belə ki, sosial media istifadəçiləri "jamaz.info" saytının rəhbəri İbişbəyli Fikrət Fərəməz oğlu, "miq.az" saytının rəhbəri Alışov Aqil Balabəy oğlu, Şirvan şəhər sakini İsmayıl Elçin Xankərəm oğlu, Lənkəran rayon sakini Cabbarlı Əli Allahverdi oğlu və Xaçmaz rayon sakini Fətəliyeva Nuranə Etibar qızına "Prokurorluq haqqında" Qanunun 22-ci maddəsinə əsasən gələcəkdə bu kimi neqativ hallara yol verməmələri ilə bağlı xəbərdarlıq edilib.

Bundan başqa, "Facebook" sosial şəbəkəsində özünə məxsus olan səhifədə qanunla yayılması qadağan edilən informasiyanı yerləşdirdiyinə görə "Prokurorluq haqqında" Qanunun 24-cü maddəsi rəhbər tutulmaqla Şahmuradov Tofiq Təhmuraz oğlunun barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci (internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün Bakı şəhəri, Nizami rayon Məhkəməsinə göndərilib.



Məhkəmənin qərarı ilə Tofiq Şahmuradov barəsində 1 ay müddətinə inzibati həbs tənbehi seçilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu media subyektləri və sosial şəbəkə istifadəçilərinə müraciət edərək bildirir ki, dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış məlumatların yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Neqativ hallara yol vermiş şəxslər barəsində mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görüləcək.

# Sabunçuda yolların yenidən qurulmasına 7,5 milyon manat ayrılıb

**Azərbaycan Prezidenti İlham Əliyev Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Bakı şəhəri Sabunçu rayonunun Bakıxanov, Kürdəxanı, Maştağa, Ramana və Sabunçu qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 7,5 milyon (yeddi milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Ukraynanın yeni Baş prokuroru seçilib



**Ukraynanın yeni Baş prokuroru təsdiqlənib.**

APA "Ukrinform"a istinadən xəbər verir ki, bu gün namizədliyi Prezident Vladimir Zelenski tərəfindən irəli sürülən Andrey Kostinin posta təyin olunması ilə bağlı səsvermə keçirilib.

299 millət vəkilinin dəstəyi ilə Andrey Kostin Ukrayna Baş prokuroru postuna seçilib.

O, bu postda İrina Venediktovanı əvəz edəcək.




# Türkiyə Xarici İşlər Nazirliyi bəyanat yayıb

## XİN Abdulla Şahidin Ermənistanda qondarma "soyqırımı abidəsi"ni ziyarət etməsini pisləyib

**BMT Baş Assambleyasının 76-cı sessiyasının Prezidenti və Maldiv Respublikasının xarici işlər naziri Abdulla Şahidin Ermənistana səfəri çərçivəsində qondarma "soyqırımı abidəsini" ziyarət etməsi başa düşülmür.**

APA xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb.

Bildirilib ki, BMT Baş Assambleyasının prezidenti kimi tərəfsiz vəzifəni icra edən biri diqqətli olmalı və məsuliyyətli davranmalı idi.

*Qeyd olunub ki, BMT səlahiyyətli orqanlarını təmsil edən şəxslərin 1948-ci il tarixli BMT "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiya başda olmaqla, beynəlxalq hüququn norma və qaydalarına uyğun davranmaları lazımdır:*

*"Tarixi faktlar və beynəlxalq hüququn siyasi manipulyasiya ilə təhrif edilməsi cəhdlərini qınayır və rədd edirik. Türkiyə 1915-ci il hadisələri ilə bağlı həqiqətlərin tam, adil və dürüst çərçivədə müzakirə edilməsi qənaətindədir".*

# "Hərbi əməliyyatlara başlamaq tezdir"

## Turab Rzayev: "Bunun üçün ən azından Ukrayna-Rusiya müharibəsinin nəticəsini gözləmək lazımdır"



"Qarabağdakı təxribatların məqsədi Azərbaycanı təhrik etməkdir"

**"Ermənistanın sərhəddə və Qarabağda törətdiyi insidentləri Azərbaycana və regiona qarşı yönəlmiş təxribatların tərkib hissəsi kimi dəyərləndirmək olar".**

*Bunu "Şərq"ə açıqlamasında politoloq Turab Rzayev deyib. Ekspert bildirib ki, qlobal güclərin həm Azərbaycandan, həm də Ermənistandan müəyyən istəkləri var:* "Bu məsələdə Azərbaycan daha çox dirəniş göstərir. Rəsmi Bakı Rusiyanın tələblərinə adekvat cavab verməyəndə, Kremlin istəklərinə əməl etməyəndə onların Azərbaycana qarşı istifadə edəcəyi bir neçə alət var. Siyasi alətlərdən ən böyüyü məhz Qarabağ məsələsidir. Ona görə də bölgədə vaxtaşırı olaraq təxribat törədilir, Azərbaycan bölmələri atəşə tutulur. Bəzi hallarda Azərbaycana məxsus avtomobillərin, maşın karvanlarının önü kəsilir. Qondarma rejimin təmsilçiləri Rusiyada yüksək vəzifəlilər tərəfindən qəbul edilir. Ara-sıra "Dağlıq Qarabağ respublikası" ifadəsindən istifadə edilir və s. Bütün bunlar Azərbaycana qarşı təzyiq vasitəsidir".

**T.Rzayev vurğulayıb ki, Rusiya Qarabağdakı silahlıların çıxarılması üçün Azərbaycandan vaxt istəyib. Rəsmi Bakı da ruslara iyun ayınadək vaxt verib**: "Halbuki, bəyanat imzalandığı gündən etibarən ermənilərin qanunsuz silahlıları dərhal bölgəni tərk etməliydi. Verilən açıqlamalara görə, Ermənistan öz silahlı qüvvələrini Qarabağdan çıxaracaq. Oradakı separatçı silahlı dəstələr isə qalacaq. Ermənistan tərəfi onları yerli "özünümüdafiə ordusu" adlandırır. Görünən isə odur ki, Rusiya tərəfi erməni silahlılarının Qarabağdan sürətlə çıxarılmasında maraqlı deyil. Moskva öz öhdəliklərini yerinə yetirmir. Bu da Azərbaycana şərait yaradır ki, həm Zəngəzur dəhlizinin açılmamasını, həm erməni silahlılarının çıxarılmamasını əlimizdə əsas edərək anti-terror əməliyyatına başlayaq. Buna tam hüququmuz və hərbi gücümüz də var. Ancaq düşünürəm ki, indiki dövrdə hərbi əməliyyatlara başlamaq tezdir. Bunun üçün ən azından Ukrayna-Rusiya müharibəsinin nəticəsini gözləmək lazımdır. Qarabağdakı təxribatların da məqsədi Azərbaycanı təhrik etməkdir. İndiki dövrdə təmkinlə hadisələrin gedişatı izlənməli və Ukraynadakı vəziyyət bəlli olduqdan sonra yekun qərar verilməlidir".

**İsmayıl Qocayev**

# Yeni strategiya çoxşaxəlidir

## 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişiklikləri görəcəyik



**"Son illər ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi siyasət sayəsində milli iqtisadiyyat qısa müddətdə yeni qlobal reallıqlara uyğunlaşdırılıb".**

**Bunu millət vəkili Azər Badamov deyib. Deputat bildirib ki, ölkədə makroiqtisadi sabitlik təmin edilib:** "Azərbaycan qlobal böhrandan ən az təsirlənən ölkələrdən birinə çevrilib. Dövlətimiz uğurlu iqtisadi və siyasi əsaslar üzərində inkişaf edərək postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu da gələcək çağırışlara hazır olmaq üçün yeni hədəflərin müəyyənləşdirilməsini aktuallaşdırır. Məhz bu məqsədlə "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunub. Bu prioritetlərə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanıb. Cənab Prezidentin müvafiq sərəncamı ilə təsdiq edilib. 2022-2026-cı illərdə sosial-iqtisadi inkişafa dair strategiyada sosial-iqtisadi həyatın müxtəlif sahələrində koordinasiyalı fəaliyyətin təmin olunmasının təşkili öz əksini tapıb. Nazirlər Kabineti qarşısında icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planları və bu kimi digər sənədlərin Strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi tapşırılıb".

Parlament üzvü qeyd edib ki, bu strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq: "İqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq. Xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək. İqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcək. Yeni strategiya çoxşaxəlidir. Sosial iqtisadiyyat bütün sahələrin inkişafını özündə əks etdirir. Hesab edirəm ki, strategiyanın uğurla icrası ölkəmizin inkişafını keyfiyyətcə yeni mərhələyə daxil edəcək. Azərbaycan dünya ölkələri sırasında öz yerini möhkəmləndirəcək".

**İsmayıl**

**30 ilə yaxın erməni tapdağında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik siyasəti və Azərbaycan Ordusunun rəşadəti nəticəsində işğaldan azad olundu. 10 noyabr 2020-ci ildə Azərbaycan Ermənistan və Rusiya arasında üçtərəfli bəyanat imzalandı.**



# Rusiya sülh müqaviləsinə mane olmağa çalışır

## Ona görə də təxribatların davam edəcəyi gözləniləndir

Bəyanata əsasən, İkinci Qarabağ müharibəsindən qalib ayrılan Azərbaycan üç rayonun itkisiz, qansız qaytarılmasına, Zəngəzur koridorunun açılması üçün imkan yaradılmasına, ən əsası Ermənistanın kapitulyasiyasına nail oldu. Bəyanatın imzalanmasından 2 il ötür. Amma hələ də Ermənistanın ölkəmizə qarşı mütəmadi olaraq, təxribatlar törətdiyinə şahid oluruq. Son günlər sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərə silah daşınması, mövqelərimizin atəşə tutulması və s. kimi xəbərlər də ermənilərin dinc qalmadığının sübutudur.

**Politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu "Şərq"ə deyib ki, 44 günlük müharibənin sonunda Qarabağın Dağlıq hissəsinə sülhməramlılar adı altında rus qoşunlarının yerləşdirilməsi əlbəttə ki, yekun nəticənin ən xoşagələn, uğurlu variantı deyildi:** "Çünki hər kəs anlayırdı ki, həmin o hərbi kontingentdən Rusiya daim ölkəmizə təzyiq kimi istifadə edəcək. Həmçinin imzalanan üçtərəfli bəyanatda göstərilən bəndlərə tam əməl edilməyəcək. Rus hərbçilərinin Qarabağa yerləşdirilməsinin əsas məqsədlərindən biri də təkcə Azərbaycan basqı deyil, həm də oradakı erməni silahlı birləşmələrini qoruyub, saxlamaqdır. Çünki onlar da ölkəmizə qarşı gərginlik yaradan vasitə kimi istifadə edilirdi və davamı olacaq. Bu səbəbdən də Ermənistanın kapitulyasiyası ifadəsi bir qədər yanlışdır. Çünki söhbət kapitulyasiyadan yox, atəşkəs anlaşmasından gedirdi. Həmin bəyanata əsasən də 9 bənddə göstərilən şərtlərin hamısı olmasa da, böyük bir hissəsi xeyrimizə idi. Gördük ki, bəyanatın bir neçə punktu açıq-aşkar sabotaj olundu. Həmçinin Zəngəzur dəhlizinin açılması məsələsi. İndi Laçın koridorunun Azərbaycana qaytarılması və alternativ yolun çəkilməsinin də ləngidiyini müşahidə edirik. Üstəlik Rusiya hərbi kontingentini aktiv şəkildə yeni müqavimətə, savaşa hazırlayır. Bunun nəticəsi kimi ən böyük ehtimallardan olan - növbəti bir qarşıdurma yaranar. Nəticədə sülh anlaşmasından söhbət gedə bilməz. Ümumiyyətlə, Rusiya ilk gündən Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının tərəfdarı olmayıb. Münaqişənin bitməsi Rusiya üçün əlverişli deyil. Belə olduğu halda Rusiya Cənubi Qafqazda geosiyasi təsir imkanlarını itirir və bu, onun böyük planlarına əngəl törədir. Həmçinin Cənubi Qafqaz üzərindən Yaxın Şərqə çıxışı imkanına mane olur".

"Nə qədər pessimist səslənsə də, hətta hansısa lokal, yaxud geniş hərbi əməliyyatlara keçə biləcəyi ehtimalı da yüksəkdir"

**Ə.Oruclu vurğulayıb ki, beynəlxalq reaksiyalar yetərincə deyil və olmayacaq:** "Ancaq bölgədə qarşıdurma yarandıqda onların hərəkətini müşahidə edə bilərik. Çünki bu gün beynəlxalq aləmin diqqəti əsasən, Ukraynaya yönəlib. Rusiyanın rəsmi Kiyevə qarşı təcavüzü, sanksiyalarla geriçəkilməyə məcbur etməsi kimi məsələlər olduğu üçün vəziyyət bir qədər mürəkkəbdir. Bundan başqa, bölgədəki dövlətlər arasında təkcə Rusiya deyil, marağı Azərbaycanla ziddiyət təşkil edən İran da var. Bunu açıq-aşkar Tehran görüşündə gördük. Ona görə də təxribatların davam edəcəyi gözləniləndir. Nə qədər pessimist səslənsə də, hətta hansısa lokal, yaxud geniş hərbi əməliyyatlara keçə biləcəyi ehtimalı da yüksəkdir. Rusiyanı kənara qoymaqla, Qərbin, Avropanın, BMT-nin reaksiyaları yalnız real təhlükə, müharibə olduqda özünü büruzə verəcək. Çünki Avropanı hazırda daha çox enerji məsələləri maraqlandırır. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri zamanı Avropa və Azərbaycan arasında qaz anlaşması haqqında Memorandum imzalandı. Amma Avropa Birliyinin bu məsələdə vasitəçi olmasına baxmayaraq, sülh barəsində heç bir söhbət, irəliləyiş yoxdur. Görünür, Avropada da anlayırlar ki, prosesdə Rusiya var və onu kənarlaşdırmaq mümkün deyil. Əksi yeni gərginlik, müharibə deməkdir. Çünki İkinci Qarabağ müharibəsində Rusiyanın maraqları təmin edilməyib. Bölgədəki kommunikasiyaları nəzarətə götürmək istəyirdi, lakin nail ola bilmədi".

**Sücayət**

# Kəlbəcərdə minaya düşən polkovnikin ayağı amputasiya edilib

## Vüqar İsbəndiyarovun vəziyyəti stabildir

**Ötən gün Kəlbəcərdə minaya düşən Azərbaycan Ordusunun N saylı hərbi hissəsinin komandiri, polkovnik Vüqar İsbəndiyarovun son durumu açıqlanıb.**

"Report"un məlumatına görə, Gəncədə hospitala yerləşdirilən zabitin sol ayağı amputasiya edilib, sağ ayağında isə çox saylı qırıqlar var.

Bu gün V.İsbəndiyarovun sağ ayağı əməliyyat olunub. Polkovnikin bədəninin digər yerlərində qəlpə yarası yoxdur.

Hazırda onun vəziyyəti stabildir.



V.İsbəndiyarovun vəziyyəti tam sabitləşəndən sonra Bakıya Silahlı Qüvvələrin Baş Klinik Hospitalına göndəriləcək.

Qeyd edək ki, V.İsbəndiyarov iyulun 26-sı axşam saatlarında Kəlbəcər rayonu ərazisində mina partlayışı nəticəsində xəsarət alıb.

Faktla bağlı Kəlbəcər Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.2.12-ci (qəsdən adam öldürməyə cəhd, milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb.



# Ərdoğan Putini razılığa gətirəcək

Qarabağdan erməni hərbi birləşmələrinin çıxarılması məsələsinə Kreml yaşıl işıq yandıracaq

**Rusiya Prezidenti Vladimir Putin və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan avqustun 5-də Soçidə görüşəcək. Rusiyanın Türkiyədəki səfiri Aleksey Yerxov "Rossiya-24" kanalına açıqlamasında bildirib ki, liderlər görüş zamanı Ukrayna, Qara dəniz regionu və Suriyadakı vəziyyət də daxil olmaqla, geniş mövzuları müzakirə edə bilər. Yerxov əlavə edib ki, görüşün mövzularını prezidentlər özləri müəyyən edəcək.**

*Liderlərin gözlənilən görüşü ilə bağlı "Şərq"ə danışan politoloq Məhəmməd Əsədullazadə xatırladıb ki, iyulun 19-da Suriya məsələsi üzrə Tehranda keçirilən konfranda tərəflər razılığa gələ bilmədi.* Analitikə görə, xüsusilə, Türkiyənin Suriyanın şimal-şərqində PKK-YPG terror təşkilatına qarşı anti-terror əməliyyatı keçirməsinə Rusiya və İran razılıq vermədi: "Ötən gün Ərdoğan bir daha Rusiya və İrana mesajlar verərək Ankaranın hərbi əməliyyatları keçirəcəyini qeyd etdi. Türkiyə anti-terror əməliyyatını keçirmək üçün ilk növbədə Rusiyanın razılığını almağa çalışır. İranın mövqeyinə gəldikdə, Türkiyə üçün bu, əhəmiyyətli deyil. Kremllə Ankara razılaşdıqdan sonra Tehran geri çəkiləcək. Ona görə də Tehranda razılığın əldə edilməməsi, Türkiyənin birbaşa Rusiya ilə danışıqlar aparmasını şərtləndirdi. Türkiyə prezidentinin Soçidə Putinlə aparacağı danışıqlarda razılığın əldə olunması gözlənilir. Moskvaya qarşı Qərb koalisiyasının formalaşması, sanksiyaların tətbiqi Kremlin Ankara ilə əlaqələrini pozmamasına gətirib çıxarır. Ona görə də bu əməliyyata Putinin razılıq verməsi mümkündür. Ərdoğan Moskvaya getməyə, Putin Tehran danışıqlarında razılıq verə bilərdi. Amma Putinə qarşı sanksiyalar fonunda, onun Ərdoğanı Kremldə qarşılaması və razılaşma əldə etməsi Putin üçün hava-su kimi lazımdır. Bu, ilk növbədə daxili auditoriya, həmçinin Qərb üçün bir göstəri olacaq".

Ekspertin fikrincə, avqustun 5-dən sonra Türkiyə ordusunun hərbi əməliyyatlara başlaması mümkündür: "Suriya ilə bağlı bir neçə istiqamətdə razılıq əldə ediləcək. Ola bilər ki, İdlib məsələsində Ərdoğan da Putinə güzəştə getsin. Görüşdə Ukrayna böhranı müzakirə ediləcək. Xüsusilə, taxıl dəhlizi ilə bağlı razılaşmanın problemsiz yerinə yetirilməsi, həmçinin Kiyevlə sülh danışıqlarına başlanması müzakirə olunacaq. Danışıqlardan sonra Kiyevlə Moskva arasında İstanbulda danışıqlar başlaya bilər. Putin Ərdoğan vasitəsilə Ukrayna Prezidenti V.Zelenskiyə öz mesajlarını və təkliflərini çatdıracaq. Ukraynanın əks-hücumları, Rusiyanın ciddi itkilər verməsi Rusiyanın danışıqlara başlamasına sövq edir. Digər məsələ isə Ermənistan-Türkiyə sərhədlərinin açılması və Qarabağda erməni silahlı birləşmələrinin çıxarılmasıdır. Cənab Ərdoğan silahlı erməni hərbi birləşmələrinin tam çıxarılmasını Moskva ilə razılaşdıracaq. Bundan əlavə, danışıqlarda ikitərəfli iqtisadi əlaqələr, hərbi-texniki əməkdaşlıq müzakirə olunacaq. Bu görüş regionda ümumi geo-siyasi situasiyanın formalaşmasına təsir edəcək".

İsmayıl Qocayev

# Tarif Şurasının qərarı yaxşı xəbər deyil

Ola bilsin ki, növbəti mərhələdə qiymətləri yanacaqdoldurma məntəqələrinin özləri müəyyənləşdirsin




**Tarif Şurası Azərbaycanda "Aİ-92" markalı avtomobil benzininin və dizelin pərakəndə satış qiymətlərini dəyişməyib.**

Şuradan bildirilib ki, iclasda benzin və dizel üzrə təchizat tariflərinin müəyyən olunmasına dair Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) müraciətinə baxılıb və aparılan tarif dəyişikliyi benzinin və dizelin pərakəndə satış qiymətlərinə təsir göstərməyəcək və həmin məhsulların mövcud pərakəndə satış qiyməti dəyişmir. Qeyd edilib ki, məsələ ilə bağlı ötən müddət ərzində müvafiq təhlil işləri aparılmış və bu cür halların aradan qaldırılması məqsədilə benzin və dizel üzrə pərakəndə satış qiyməti müvafiq olaraq 1 litr üçün 1 manat və 0,80 manat səviyyəsində əvvəlki kimi saxlanılmaqla tarif zəncirində dəyişiklik edilərək topdansatış və pərakəndə satış üzrə təchizat tariflərinin ayrılıqda müəyyən olunması məqsədəuyğun hesab olunub. Azərbaycanda "Aİ-92" markalı avtomobil benzini və dizel yanacağı Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda istehsal olunur.

**İqtisadçı-ekspert Əyyub Kərimli "Şərq"ə açıqlamasında bildirib ki, Tarif Şurasının qərarı yanacaqdoldurma məntəqələrinin gəlirlərinə mənfi təsir edəcək.** Topdansatış qiymətləri hər ton üçün 2 manat bahalaşmışdı. Yeni qərar isə məntəqələrin rentabelliyinə təsir göstərəcək. Bu da onların xidmətinə, yanacağın keyfiyyətinə təsir edəcək.

İqtisadçının sözlərinə görə, Tarif Şurasının benzinin və dizelin pərakəndə satış qiymətlərinin dəyişməməsi ilə bağlı qərarı benzinin qiymətinin dövlət tərəfindən tənzimlənməsinə son qoyulma ehtimalı doğurur. Ola bilsin ki, növbəti mərhələlərdə qiymətləri yanacaqdoldurma məntəqələrinin özləri müəyyənləşdirəcək. Bu isə rəqabət mühitinin formalaşması baxımından müsbət haldır.

Şəymən

# Ortada siyasi iradə var

Azərbaycan dövləti rüşvətxor və korrupsioner məmurlarla mübarizədə israrlı görünür



**"Azərbaycanda bəzi adamların layiq olmadıqları halda yüksək vəzifə tutmaları heç kimə sirr deyil". Bu sözləri "Şərq"ə açıqlamasında Jurnalist Araşdırma Mərkəzinin rəhbəri, "yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə deyib.**

Prezident İlham Əliyevin növbəti dəfə icra başçılarını və məmurları tənqid etməsi və sərt xəbərdarlığını dəyərləndirən S.Verdizadə bildirib ki, biz bu cür adamlarla hakimiyyətin bütün eşalonlarında qarşılaşa bilərik: "Həmin adamların icra orqanlarında çoxluq təşkil etməsi problemi daha qabarıq şəkildə üzə çıxarır. Hesab edirəm ki, vəzifəli şəxs dövlətçilik şüuruna sahib olmalı, ümumi mənafeni şəxsi manafeyindən üstün tutmağı bacarmalıdır. Sözün həqiqi mənasında xalqın qulluqçusu olmalıdır. Təəssüf ki, çoxları bu anlayışı səhv salaraq, xalqı özlərinə qulluqçu kimi işlətməyə çalışırlar. Bu isə fəsadsız ötüşmür, bütövlükdə idarəçiliklə bağlı haqlı narazılıqlar yaradır. Azərbaycan dövləti rüşvətxor və korrupsioner məmurlarla mübarizədə israrlı görünür. Ortada müəyyən siyasi iradə var. İcra başçılarının, digər yüksək vəzifəli şəxslərin həbsi də bunu sübut edir. Amma təəssüf ki, bir çoxları bu həbslərdən nəticə çıxarmır. Var-dövlət qazanmaq, pul yığmaq ehtirası onların gözlərini bağlayıb".

**S.Verdizadə vurğulayıb ki, onlar siyasi reallıqları düzgün qiymətləndirə bilmirlər:** "Yalnız DTX əməkdaşlarının güclü əlləri boğazlarından yapışanda səhv etdiklərini anlayırlar. Bu zaman isə çox gec olur. Hesab edirəm ki, rüşvətxor və korrupsioner məmurlara qarşı mübarizə bütün gücüylə davam etməlidir. Bu adamların cəzalandırılması gec-tez başqalarına da dərs olacaq. Əsas odur ki, hər kəs törətdiyi əməl görə bir gün cavab verəcəyini başa düşsün".

İsmayıl

# Bəzi müəllimlərin əməkhaqqı artırılacaq

Hər kəs öz biliyinin və bacarığının bəhrəsini görəcək



**Elçin Əfəndi:** "n" sayda müəllim var ki, 18-20 saat dərs deyərək savadlı müəllimlərdən daha çox maaş alır"

**"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda müəllimlərin əməkhaqqısında yeni əməkhaqqı sisteminin tətbiqi və əməkhaqlarının differensiallaşması nəzərdə tutulub.**

Təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, sertifikasiya yalnız müəllimlərin hazırlıq səviyyəsinin təminatı aləti deyil, eyni zamanda müəllimlərin işinin rəğbətləndirilməsidir: "Sertifikasiyada yüksək nəticə göstərmiş müəllimlərin əməkhaqqına əlavələrin verilməsini planlaşdırırıq".

**Təhsil eksperti Elçin Əfəndinin "Şərq" qəzetinə açıqlamasına görə, sertifikasiyada yüksək nəticə göstərmiş müəllimlərin əməkhaqqına əlavələrin verilməsi müəllimlər üçün bir növ stimul rolu oynayacaq:** "Eyni zamanda müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün motivasiya olacaq. Digərləri də öz üzərində işləyib növbəti mərhələdə yüksək nəticə toplamaqda maraqlı olacaq. Sertifikasiya müəllimin bilik və bacarıqlarını yoxlayır, əməkhaqqı isə dərs yükünə görə müəyyənləşir kimi iddialarla razı deyiləm. Bilik və bacarıqları yetərli olmayan "n" sayda müəllim var ki, 18-20 saat dərs deyərək savadlı müəllimlərdən daha çox maaş alır. Müəllimlərin əməkhaqqısının differensiallaşmasından sonra isə heç kimin haqqına girmək mümkün olmayacaq. Hər kəs öz biliyinin və bacarığının bəhrəsini görəcək. Hər hansı məktəbdəki yüksək nəticə göstərən müəllim, sertifikasiyadan keçməyən və aşağı nəticə göstərən müəllimlə eyni əməkhaqqı almamalıdır. Sertifikasiya həm də bu məqsədə xidmət etməlidir. Təhsil məsələsində ən yaxşı kadrları cəlb etməyi bacarmalıyıq. Nazirliyin sertifikasiya ilə bağlı atacağı addım təhsilin keyfiyyətinin yüksəlməsinə yönələn bir addımdır".

Bəzi iddialara görə, müəllimlərin əməkhaqqısının differensiallaşmasına görə sertifikasiya imtahanları çətinləşəcək. Sertifikasiya imtahanları ilə bağlı qorxulu heç nə yoxdur. Burada dərsliklərdən, MİQ proqramından, təhsil qanunları və konsepsiyalardan kənarda heç nə öz əksini tapmır".

Şəymən



# Partiyalar azadlıq istəyir

Funksionerlər ümid edir ki, qəbul olunacaq yeni qanun layihəsi kağız üzərində qalmayacaq

**Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclis sədri Sahibə Qafarovaya müraciət ediblər. Müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən yeni qanunun hazırlanmasının zəruriliyi vurğulanıb.**

Milli Məclisin sədri Sahibə Qafarova artıq yeni qanun layihəsinin hazırlanması haqqında müvafiq tapşırıqlar verib və sənədin hazırlanması üzrə işə başlanılıb. Bu qanunun ictimai əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyaların yeni qanun layihəsi ilə bağlı təkliflərini Azərbaycan Respublikası Milli Məclisinə təqdim etmələri xahiş olunub.

**Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə açıqlamasında bildirib ki, siyasi partiyalarla bağlı qanun müstəqilliyin ilk illərində qəbul olunub.** Partiya təmsilçisi qeyd edib ki, qanun qəbul olunarkən və ya sonrakı dəyişikliklər zamanı əsas məqsəd təəssüf ki, heç də çoxpartiyalılığın inkişafı, demokratizmin genişlənməsi olmayıb: "Əksinə, qanunun ruhu siyasi partiyaların daha çox dekorasiya rolunu önə çəkməyə istiqamətlənib. Hazırkı təklif olunan dəyişikliklərin hansı ölçüdə və ruhda olacağından məlumatım yoxdur. Amma arzu edərdim ki, bu dəyişikliklər real çoxpartiyalı siyasi sistemin bərqərar olmasına, siyasi partiyaların azad fəaliyyətinə və dövlət həyatındakı rolunun artırılmasına istiqamətlənən müddəalar olsun. Konkret olaraq müzakirələr başlanarkən biz də bu müzakirələrin obyektiv və xoşniyyətli olduğunu görərsək təkliflərimizi verəcəyik".

**Azərbaycan Milli İstiqlal Partiyasının Mərkəzi Şurasının üzvü Əli Orucov da deyib ki, əslində pis qanun yoxdur, problem hansısa qanunun işlək olub-olmamasındadır:** "Hətta indiki qanun belə işlək olsaydı, biz onu məqbul hesab edərdik. Əfsuslar ki, bizdə hansısa qanunlar qəbul olunanda, sonradan düzəlişlər ediləndə vəziyyət daha da kəskinləşir. Mövcud "Siyasi partiyalar haqqında" qanunda maraqlı nüanslar var.

## Artıq proporsional seçki sisteminə keçmək vaxtıdır. Azərbaycanda Türkiyənin siyasi sistemini tətbiq etməliyik

Əgər qanun işləsəydi, partiyalar normal fəaliyyət göstərə, inkişaf edə bilərdi. O baxımdan, hesab edirik ki, qanunların qəbulundan daha çox mövcud qanunların işləmə mexanizmini təmin etmək lazımdır. Siyasi partiyalar elə vəziyyətə salınıb ki, onların fəaliyyəti müşahidə olunmur. Maddi-texniki bazaları, cəmiyyətə təsir imkanları yoxdur. Eyni zamanda KİV-lərə çıxışları da məhduddur. Belə vəziyyətdə siyasi partiyalar haqqında ən optimal, mütərəqqi qanun qəbul edilsə belə vəziyyət dəyişməyəcək. Məsələn, seçki məcəlləsi də çox mütərəqqidir, amma ölkədə seçkilər həmin qanuna uyğun təşkil olunmur".

**Ə.Orucova görə, siyasi partiyaların dövlət tərəfindən maliyyələşməsi çox vacib və aktual mövzudur:** "Əgər partiya büdcədən maliyyələşməsə, istər-istəməz hansısa kənar gücün təsiri altına düşür və normal fəaliyyət göstərə bilmir. Ümumi mexanizm taparaq, siyasi partiyaların maliyyələşməsini həyata keçirmək lazımdır. 5-6 partiyaya hansısa binada bir-iki otaq vermək siyasi təşkilatlara qayğı, diqqət demək deyil. Bu addım partiyaların inkişafına dəstək sayılmır. Əsas məsələ partiyaların həqiqətən müstəqil fəaliyyətdə olması, maliyyə imkanları əldə etməsi və üzvlərinin sayını artırmasıdır".

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli də hesab edir ki, ümumiyyətlə, Azərbaycanda siyasət peşəkarlaşmalıdır:** "Peşəkar siyasət partiyaların fəaliyyətindən, onların cəmiyyətə təsir gücündən asılıdır. Azərbaycandakı partiyalar ölkə həyatında mühüm rol oynaya bilmir, çünki illərdir neytrallaşdırılmış vəziyyətdədirlər. Əslində hakim partiyada vəziyyət bu cürdür. Çünki siyasi rəqabət olmadığı üçün partiyaların fəaliyyəti sıfıra enir. Ona görə də ümid edək ki, Milli Məclisdə qəbul olunacaq yeni qanun layihəsi kağız üzərində qalmayacaq və ölkədə fəaliyyət göstərən bütün partiyaları əhatə edəcək. AĞ Partiya olaraq hər dəfə təklif etmişik ki, siyasi partiyaların müstəqil fəaliyyətinə imkan yaradılmalı, maliyyələşməsi təmin olunmalıdır. Şübhəsiz, qanun layihəsinin detalları açıqlandıqdan, müzakirələr başladıqdan sonra partiyamız konkret təkliflərlə çıxış edəcək. Qısaca onu deyim ki, artıq proporsional seçki sisteminə keçmək vaxtıdır. Azərbaycanda Türkiyənin siyasi sistemini tətbiq etməliyik. Əgər siyasi mühitin sağlam olmasını istəyiriksə, siyasi rəqabət də sağlam olmalıdır. Bunun üçün də Türkiyə və Avropa nümunələrinə nəzər yetirilməli və partiyalara imkanlar yaradılmalıdır. Belə olarsa, siyasətdə təsadüfi insanlara yer olmayacaq. Yeni siyasətlə peşəkar siyasətçilər məşğul olacaq".







İsmayıl Qocayev






# "Kampaniya bütün alimlərə qarşı aparılır"

## Fərhad Cabbarov: ”Televiziyanın sıravi bir adamın “Akademiyada heç bir iş görmürlər, bütün günü domino oynayırlar” fikrini efirə verməsi etik cəhətdən düzgün deyil”

**Azərbaycan Milli Elmlər Akademiyası yenidən medianın gündəmindədir. Akademiyanı növbəti dəfə müzakirə predmetinə çevirən budəfəki məsələ AZTV-nin elm ocağı haqqında hazırladığı tənqidi reportajı olub. Dövlət Televiziyasının süjetində AMEA-nın fəaliyyəti sərt tənqid olunub. Kanalın müxbiri qurumun qarşısında olduğunu, lakin Akademiyanın heç bir işçisinin orada olmadığını söyləyib.**

Daha sonra binaya daxil olan müxbir və operator elm ocağının bomboş, heç kimin olmadığını, işıqların söndürüldüyünü vurğulayıb. Məhz həmin süjetdən sonra AMEA-nın gələcək taleyi həm sosial şəbəkələrdə, həm də ictimaiyyətdə yenidən müzakirə mövzusuna çevrilib. Bir sıra şəxslərin akademiyanın ləğv edilməsi ilə bağlı çağırışlar etdiklərinin şahidi oluruq. Onlar Akademiyada fəaliyyət göstərən elm adamlarını elmsizlikdə, ümumiyyətlə, fəaliyyətsizlikdə ittiham edirlər. Bəziləri isə AMEA-nın ölkə elminə tarixi töhfələr verdiyini və burada hələ də ciddi elmi tədqiqatların aparıldığını əsas gətirirlər. Buna görə də Akademiyanın qorunub saxlanılmasının zəruriliyini dilə gətirirlər. Mövzunun ictimai əhəmiyyətini nəzərə alaraq, tarixçi-alim, tarix üzrə elmlər doktoru, Milli Azərbaycan Tarixi Muzeyinin icraçı direktoru Fərhad Cabbarovla söhbətləşmək qərarına gəldik. ”Şərq”in suallarını ətraflı cavablandıran tarixçi-alim AMEA ətrafında gedən söz-söhbətə, iddialara və AZTV ilə Akademiya arasındakı qalmaqala aydınlıq gətirdi...

**- Fərhad müəllim, AMEA müəyyən proseslərdən sonra nisbətən nüfuzunu itirmiş elm ocağı kimi xarakterizə olunur. Akademiyanın əsas problemləri nədir? Niyə AMEA sovet dövründəki populyarlığını itirib?**

- Akademiyanın əsas problemi maliyyələşmədir. İkinci problem AMEA-ya gənc kadrların cəlb edilməməsidir. Digər problem isə ümumilikdə struktur islahatlarının aparılmamasıdır. Azərbaycan Milli Elmlər Akademiyasının xarici akademiyalarla müqayisəsini aparır, tənqid edirlər. Ancaq Akademiyaya ayrılan vəsaiti dünyanın müxtəlif ölkələri ilə müqayisə etmək lazımdır. Elm öz-özünə inkişaf etmir, maliyyə dəstəyi mütləqdir. Elmi laboratoriyaların saxlanılması üçün müasir cihazlar alınmalıdır. Əlbəttə, bunlar edilir. Deyə bilmərəm ki, ümumiyyətlə, bu istiqamətdə işlər görülmür. Amma daha yüksək səviyyədə olmalıdır. Digər yandan elmi işçilərin əməkhaqları çox aşağıdır. Bu, Akademiya sistemində böyük problemdir. Məhz bu problem gənclərin AMEA-ya gəlməməsinin başlıca səbəbidir. Aşağı maaşla gənclər burada uzun müddət qalmırlar. Akademiyada yaşlaşma prosesi ciddidir. Alimlərin bir hissəsi müasir tələblərə cavab vermirlər. Modern elmdə gedən proseslərdən, yeniliklərdən xəbərsizdirlər. Attestasiyanın keçirilməsinə ehtiyac var. Struktur islahatlarının aparılması vacibdir. Buna da ehtiyac böyükdür. Akademiya sistemində idarəetməyə, Rəyasət Heyəti ilə institutlar arasındakı münasibətlərə ciddi şəkildə baxılmalıdır. Kadr islahatlarına ehtiyac var. Həddindən artıq ştatlara bəlkə də ehtiyac yoxdur. Müəyyən dərəcədə ixtisarlar mümkündür. Bunların hamısı Akademiyanın qarşılaşdığı ciddi problemlərdir.

**- AMEA-nı ”lazımsız qurum” kimi görənlər, hətta ləğvini tələb edənlər var. Bu yanaşmaya münasibətiniz necədir? Həqiqətənmi AMEA-ya ehtiyac yoxdur?**

- Əgər bir quruma həqiqətən ehtiyac yoxdursa, onu ləğv etmək, yenisini yaratmaq olar. Bu, təbii prosesdir. Ancaq Akademiyaya yanaşmada bu cür mövqedən çıxış etmək elmin inkişafına töhfə verməyəcək. Akademiya ləğv olunsa, bu, Azərbaycana nə verəcək? Bəziləri Akademiyanı lazımsız qurum hesab edirlər. Televiziyalar da çox xoşagəlməz kampaniyaya start verirlər. Təəssüf edirəm ki, bu kampaniya bütün alimlərə qarşı aparılır. Elə təəssürat yaradılır ki, sanki alimlər ümumiyyətlə heç bir iş görmürlər. Birincisi, Akademiya ləğv olunursa, alimlər işsiz qalmalıdır. İkincisi, neft şirkəti hansısa enerji yataqlarını kəşf etdikdə ilk növbədə məsləhət üçün, iş üçün geoloqları dəvət edirlər. Geoloqların böyük hissəsi AMEA-da çalışır. Hazırda işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri gedir. İqtisadçı-alimlərimiz bu proseslərdə, dövlət proqamlarında yaxından iştirak edirlər. Azərbaycanda müxtəlif təbii proseslər - zəlzələ, çay daşqınları zamanı Akademiyada, ayrı-ayrı təhsil ocaqlarında çalışan alimlərə müraciət olunur. Arxeoloqlarımız Azərbaycanın bütün bölgələrində arxeoloji ekspedisiyalar aparırlar. Alimlərimiz xarici ekspedisiyalarda da iştirak edirlər. Tarixçilərimizin Qarabağla, İrəvanla, Zəngəzurla bağlı nə qədər kitabları var. Bu mövzularla bağlı danışanlar, müsahibə verənlər kimlərdir? Televiziyalar belə məsələlər gündəmdə olanda kimləri efirə dəvət edirlər? Əlbəttə ki, alimlərimizi. İndi bunların hamısının üzərindən xətt çəkdikdə, alimlər heç nə etmirlər dedikdə, ortaya sual çıxır ki, bəs bayaqdan sadaladığım işləri kim görür? Bu cür münasibət ola bilməz. Tənqid olmalıdır və biz də bilirik ki, Akademiya sistemində çatışmazlıqlar çoxdur. Ancaq bunu kampaniya şəklində aparmaq, ”Akademiya heç bir iş görmür, boş-boşuna dövlətin pullarını yeyirlər” və s. iddialar irəli sürmək doğru deyil. Dövlətin qoyduğu vəzifələr qarşısında Akademiya işini görür. Düzdür, bəlkə çağırışlara kifayət qədər cavab verilmir. Lakin birbaşa ”heç bir iş görmür” kimi xarakterizə etmək yanlış yanaşmadır. Obyektiv olmaq lazımdır.

> “Tənqid olmalıdır və biz də bilirik ki, Akademiya sistemində çatışmazlıqlar çoxdur. Ancaq bunu kampaniya şəklində aparmaq, ”Akademiya heç bir iş görmür, boş-boşuna dövlətin pullarını yeyirlər” və s. iddialar irəli sürmək doğru deyil”

**- Rəhbərliyin dəyişimindən sonra da Akademiyada zəruri islahatların getmədiyi yönündə iddialar var. Sizcə, islahatlar niyə aparılmır? Kim, niyə mane olur elmin inkişafına?**

- Bildiyim qədər rəhbərlik dəyişəndən sonra AMEA-da elmin inkişafı ilə bağlı yeni proqram hazırlanır. Akademiyada bir neçə dəfə buna dair görüşlər, iclaslar keçirilib. Deyə bilmərəm ki, proses indi hansı səviyyədə, mərhələdədir. Amma bildiyimə görə, elmi institutlardan müəyyən təkliflər alınır. Yəqin ki, onlar ümumiləşdirilir. Hər hansı sənəd formasında, yaxud konsepsiya və ya strategiya şəklində həyata keçiriləcək. ”Kim, niyə elmin inkişafına mane olur” sualına gəldikdə isə, mənə elə gəlir ki, sualı ”kim mane olur” yox, ”nələr mane olur?” formasında versək, daha doğru olar. Hər şeyi dövlətin üzərinə yükləmək olmaz. Akademiyaya müxtəlif fondlardan, şirkətlərdən, təşkilatlardan da vəsaitlər verilməlidir və sözsüz ki, şəffaflıq olmalıdır. Layihələrə özəl şirkətlər, sahibkarlar da qoşulmalı, dəstək olmalıdırlar. Hər şeyi dövlətdən ummaq doğru deyil.

**- Alimlər ”yox” sayılır, əksər hallarda efirlərə çıxarılmır. ”Azərbaycanda elm və alimlər kifayət qədərdir, amma üzə çıxarılmır, təbliğ olunmur” demək olarmı? Əgər elədirsə, bunun günahı kimlərdədir?**

- Elm elə sahədir ki, televiziya qarşısındakı geniş auditoriya üçün o qədər də maraqlı olmur. Hansısa riyaziyyatçı alimin efirdə öz kəşfləri barədə danışması izləyicilərin marağını cəlb etmir. Bu, təkcə bizdə deyil, bütün dünyada belədir. Əgər kanalın birində bədii film nümayiş olunursa, digərində fizik, yaxud kimyaçı alim öz icadından söz açırsa, təbii ki, filmə baxanların sayı daha çox olacaq. Elm kütləvi hal deyil və məhdud mütəxəssislər üçündür. Buna baxmayaraq, efirlərimizdə elmin təbliğ olunmaması reallıqdır. Bu məsələdə günahın bir hissəsini alimlərdə görürəm. Alimlər almi populyarlaşdıra bilmirlər. Digər tərəfdən televiziyalar da məsuliyyət daşıyırlar. Əgər efirlər Azərbaycanda elmin inkişafında, alimlərin tanınmasında maraqlıdırlarsa, telekanallar da bu istiqamətdə müəyyən işlər görməlidirlər. Televiziyalarda tariximizə aid çoxlu verilişlər, reportajlar olur, sənədli filmlər çəkilir. Tarixi proqramlar cəmiyyətdə maraq doğurur. Yeri gəlmişkən, həmin verilişlərə, sənədli filmlərə də bizim alimlər cəlb olunur. Halbuki, yenə həmin kanallar iddia edirlər ki, ”alimlər işləmirlər”. Burada tərs-mütənasiblik var. Düşünürəm ki, burada müəyyən əlaqələndirmə olmalıdır. Akademiya, televiziya, ümumiyyətlə media bu məsələdə birgə işləməlidir ki, elmimiz cəmiyyətdə tanınsın və populyarlaşdırılsın.

**- AZTV-nin məlum reportajı ciddi rezonans doğurdu. Televiziyanın ”işləmirlər” iddiasına alimlərin reaksiyası necə oldu?**

- AZTV-nin məlum reportajından sonra Akademiya əməkdaşlarının ciddi narazılıqları olub. Alimlərimiz sosial şəbəkədə bu haqda yazıblar. Elə başa düşülməsin ki, AMEA-nın alimləri tənqidlərə dözümsüzdürlər, yaxud özlərinə bəraət qazandırmağa çalışırlar. Narazılıq ona görədir ki, reportajlar qərəzli idi. Əgər islahat, tənqid lazımdırsa, bu, sağlam, qərəzsiz və obyektiv tənqid olmalıdır. Məsələn, sıravi vətəndaşın ”Akademiyada heç bir iş görmürlər, bütün günü domino oynayırlar” deməsi və televiziya kanalının bunu efirə bu şəkildə verməsi etik cəhətdən düz deyil. Öz işinə sadiq olan minlərlə fədakar alimlərə hörmətsizlikdir. Digər tərəfdən müxbirin hansısa saatda Akademiyada işçiləri axtarmasının özü də subyektivlikdir. Akademiya zavod, fabrik, istehsalat qurumu deyil. Vacib deyil ki, alimlər bütün günü bir stol arxasında əyləşsinlər. Alimlər kitabxanalarda, arxivlərdə, evdə işləməlidirlər. Konfranslarda olmalıdırlar. Bunların hamısı işdir. Akademiya alimlərindən gecələr evdə işləyənlər, kitab, məqalə yazanlar da çoxdur. Yəni ”səhər saat 9-dan axşam 6-ya qədər hamı işdə olmalıdır” yanaşması düzgün deyil. Akademiyanın işi bir qədər fərqlidir. Bunu dərk etmək lazımdır. Reportajların birtərəfli verilməsi də çoxlu suallar doğurur. Çünki tənqid olunur, amma həmin sistemdə işləyən adamlardan onların problemləri soruşulmur. Qarşı tərəfin mövqeyi, fikri öyrənilmir. Çox istərdim ki, bizim media Azərbaycan alimlərini bu qədər kiçiltməsin. Onların əməyini qiymətləndirsin. Hamını tərəzinin eyni gözünə qoymaq olmaz. Hər bir sahədə, eləcə də KİV-lərdə öz peşəsinə sadiq olan, yaxud əksinə, olmayan insanlar varsa, elmdə də vəziyyət o cürdür. Hansısa jurnalistin məsuliyyətsiz, qərəzli və qeyri-obyektiv davranışına görə bütün jurnalistlərə eyni gözlə baxmaq doğru deyil.

**İsmayıl Qocayev**



# Türkiyə açardır

## Vaşinqton Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasında maraqlıdır

**44 günlük müharibə sonrası rəsmi Vaşinqtonun Cənubi Qafqaza daha dəqiq desək, Azərbaycan və Ermənistana diqqəti xeyli dərəcədə artıb. Bu marağın artmasında davam edən Rusiya-Ukrayna müharibəsinin payı az deyil. ABŞ-ın indiki məqamda həm Ermənistan, həm də Azərbaycana dair fərqli maraqlarının olduğu dövlət katibi Entoni Blinkenin ölkə başçısı İlham Əliyev və Baş nazir Nikol Paşinyanla telefon söhbətində toxunduğu məqamlardan hiss olunur.**

Ermənistan tərəfi Blinkenin Paşinyanla telefon danışığı zamanı əsasən Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətlərini müzakirə etdiyini açıqlayıb. Blinken Prezident İlham Əliyevlə telefon danışığı zamanı isə əsasən bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyətindən danışıb. Eyni zamanda ABŞ-ın Ermənistanla Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyi göstərməyə hazır olması kimi məsələlər müzakirə edilib. Yəni ABŞ indiki məqamda Ermənistanla təmasları əsasən Ermənistan-Türkiyə münasibətlərinin normallaşması kontekstində, Azərbaycan ilə isə Avropanın enerji təminatı kontekstində formalaşdırır.

**Siyasi şərhçi Turan Rzayevin fikrincə, ABŞ hazırda çalışır ki, Ermənistan Kremlin orbitindən xilas olub Qərbə inteqrasiya etsin. Bunun üçün Ermənistan-Türkiyə münasibətlərinin normallaşması ən önəmli şərtdir:** ”Prinsip etibarilə Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasında rəsmi İrəvan razıdır. Türkiyəyə gəldikdə isə rəsmi Ankara topu dolayı yolla Bakının üzərinə atır. Misal üçün, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ötən gün çıxışında bu məsələ ilə bağlı qeyd etdi ki, ”Ermənistanla münasibətləri Azərbaycanla razılaşdıraraq inkişaf etdiririk. Əvvəldən bizim ”qırmızı xətt”imiz Azərbaycan idi. Azərbaycan məsələsi həll olunandan sonra qapımızı açacağımızı dedik. Biz Ermənistanla normallaşma prosesində ciddi və qətiyyətliyik”. Göründüyü kimi, rəsmi Ankara bu məsələdə ənənəvi olaraq Azərbaycanın maraqlarından çıxış edir. Bununla belə Ərdoğanın ”Azərbaycan məsələsi həll olunandan sonra qapımızı açacağıq” deməsi sərhədlərin açılmasında Ankaranın da maraqlı olmasından xəbər verir”.

Ekspertə görə, Vaşinqton bu mövzuda imitasiya edir: ”ABŞ-ın Ermənistanla Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğu ifadə edildi. Hesab edirəm ki, rəsmi Vaşinqtonun bu məsələdə dəstəyi sadəcə iki ölkə münasibətlərinin normallaşması kontekstindədir. ABŞ üçün iki ölkə arasında gərginliyin bitməsi, münasibətlərin normallaşması vacibdir. Bunun xaricindəki məsələlər, Zəngəzur dəhlizinin açılması Vaşinqtonun maraq dairəsində deyil. ABŞ bu məsələyə ”nəqliyyat bağlantılarının və kommunikasiyaların açılması” kimi yanaşaraq imitasiya edir. Yəni o, nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasını istəyir, lakin bunun bir dəhliz halında olmasını istəmir. İkincisi, söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti qeyd olundu. Aydındır ki, ABŞ və Avropa İttifaqı gələcək beş il ərzində Rusiya qazından asılılığı sıfıra endirmək niyyətindədir. Bu istiqamətdə alternativ ölkələr ilə təmaslar intensivləşib. Azərbaycan da həmin alternativ ölkələr sırasındadır. Azərbaycanla enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanan Anlaşma Memorandumu da mahiyyət etibarilə buna xidmət edəcək. Rəsmi Vaşinqton, hətta mövcud boru kəmərlərinin həcmini artırmaq, yeni layihələrin ərsəyə gəlməsi üçün investisiya maliyyə dəstəyi də təmin edə bilər”.

**İsmayıl Qocayev**

# Pekin qarşıdurmaya hazırdır

## Nensi Pelosinin Tayvana gözlənilən səfəri müharibə vəziyyəti yaradıb



**ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Çinin suverenliyini iddia etdiyi Tayvana səfər edəcəyi iddiası iki ölkə arasında gərginliyi daha da artırıb. Müdafiə Nazirliyinin sözçüsü polkovnik Tan Kıfey, Nensi Pelosinin Tayvanı ziyarət edəcəyi halda Çin ordusunun boş dayanmayacağını və reaksiya verə biləcəyini iddia edib.**

Kıfey mümkün səfərin Çin-ABŞ diplomatik əlaqələrinin əsasını təşkil edən prinsipi və birgə bəyannamənin müddəalarını ciddi şəkildə pozacağını qeyd edib. O, eyni zamanda iki ölkə və iki ordu arasındakı münasibətlərə xələl gələcəyini vurğulayıb. Çinin xəbərdarlığının ardından Ağ Ev təhlükəsizlik rəsmilərinin mümkün risklər səbəbiylə bu səfərə qarşı olduqları açıqlanıb. ABŞ rəsmiləri eyni zamanda Çin döyüş təyyarələrinin Pelosinin təyyarəsinə müdaxilə edərək, sözügedən adaya enməsinə mane olmağa çalışacaqlarından narahat olduqlarını qeyd ediblər.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Tayvan adasına səfərə hazırlaşması Pekini xeyli qəzəbləndirib. Analitikin sözlərinə görə, Çin Tayvanı özününkü sayır və onun icazəsi olmadan bu adaya səfərləri sərt qarşılayır:** ”Vəziyyət o qədər gərgindir ki, Nensi Pelosini Tayvana çatdıracaq təyyarənin hədəf alınacağı haqqında xəbərdarlıqlar var. Pentaqon narahatdır. Nensi Pelosi və onunla adaya gedəcək heyətlə bərabər ABŞ hərbi gəmiləri Hind-Sakit okean regionunda təlimlərə başlayıblar. Bu, Pekinə xəbərdarlıq mahiyyəti daşıyır. Pekin geri addım atmır və qarşıdurmaya hazırdır. Pekin Tayvanın hava sahəsində uçuşa qadağan zona elan edə bilər. Tayvan hərbçiləri hava hücumundan müdafiəyə hazırlaşırlar. Çin Xarici İşlər Nazirliyi xəbərdar edib ki, əgər bütün xəbərdarlıqlara rəğmən, Nensi Pelosi Tayvana gedərsə Çin müvafiq addımlar atmaqdan çəkinməyəcək və buna görə Vaşinqton məsuliyyət daşıyacaq. ”Financial Times” dərgisi müxtəlif mənbələrə əsaslanaraq Pekinin ciddi olduğu qənaətinə gəlib. Belə vəziyyətdə Nensi Pelosi səfərdən imtina edəcəkmi? Ağ Ev və Pentaqon Nensi Pelosini səfərdən imtina etməyə razı salacaqmı? Çünki Çinlə münasibətlərdə əlavə gərginlik Ağ Ev administrasiyasına və Pentaqona lazım deyil. Böyük Britaniyanın digər dərgisi olan ”The Daily Telegraph” Çinin Tayvanı ələ keçirmək ehtimalının artdığını yazıb”.

**Analitik vurğulayıb ki, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan bütün senarilərə hazırlaşdıqlarını bildirib:** ”Biz strateji qeyri-müəyyənlik siyasətini davam etdiririk” deyən Sallivan müharibə başlayacağı halda ABŞ-ın iştirakçı olub-olmayacağıyla bağlı suala konkret cavab verməyib. Amerikalı generallar vəziyyət barədə məlumatlıdırlar və Çinin nə edə biləcəyini proqnozlaşdırırlar. Əslində amerikalı generallar Nensi Pelosinin indiki həssas dövrdə Tayvana səfərinin əleyhinədirlər. Nensi Pelosi səfərdən imtina etməyib. Ancaq Nümayəndələr Palatasının sədri səfərin konkret hansı tarixdə reallaşacağı barədə fikir bildirmir. Pelosinin səfərdən imtinası qərarı onun imicinə mənfi təsr edəcək. Belə çıxacaq ki, Pelosi Pekinin hədələrindən qorxdu. Vaşinqton kimi Tokio da Çinin Tayvanı ələ keçirməsi ehtimalını yüksək qiymətləndirir. Tokio belə bir müharibənin başlamasını istəmir. Çünki müharibə başlayacağı halda Tokio Vaşinqtonu müdafiə edərək Çinlə üz-üzə qalacaq. Odur ki, Nensi Pelosinin adaya səfərini təxirə salması Yaponiyanın da maraqlarına cavab verir”.

**İsmayıl Qocayev**

# "Hər zaman kimin artıq pulu varsa repetitor yanına gedəcək"

## Təhsil naziri: "Çünki bizdə əsas kimdənsə yaxşı olmaqdır. Özünün yaxşı olmasına baxan yoxdur"

**Təhsil naziri Emin Əmrullayev media üçün keçirdiyi brifinqdə müəllimlərin sayının çox olması ilə bağlı fikirlərə münasibət bildirib: "Biz müəllimi bütün ölkə üçün hazırlayırıq. Hesabımızı bütün ölkə üçün götürürük. Çünki bizə ən kiçik kəndimizdə belə müəllim lazımdır. Müəllimlər isə öz evlərinə yaxın işləməyə üstünlük verir. Bizim hazırladığımız müəllim sayı vakansiyalarımızdan bir qədər çox olur. Bizim vəzifəmiz hər kəndə, hər yerə müəllim göndərməkdir".**

Nazirin sözlərinə görə, Azərbaycan məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması nəzərdə tutulur. O, qeyd edib ki, erkən yaş dövründə səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur. Nazir bildirib ki, məktəbəqədər təhsilə cəlb edilmiş uşaqların 2026-cı ildə 50 faiz olması gözlənilir. Hazırda bu rəqəm 32 faizdir.

### "Şəffaflıq artanda narazılıq da artır"

E.Əmrullayev məktəbəqədər təhsilin əhatəliliyinin artırılmasının Təhsil Nazirliyi üçün prioritet olduğunu deyib. Nazir məktəbəhazırlıq qruplarının fəaliyyətindən söz açıb: "Bizə məlum olan bağça modelidir, amma ölkəmizdə bənzər bir neçə model də tətbiq edilir. Məsələn, ümumitəhsil məktəblərində məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. Bu qruplara cəlb olunma 80 faizə çatdırılıb. Halbuki, 2015-ci ildə bu göstərici aşağı idi. Önümüzdəki illərdə bu nəticənin 90 faizi keçməsinə çalışacağıq".

O, məktəbəqədər təhsil müəssisələrinə elektron qəbul prosesinə diqqət çəkib: "Məktəbəqədər təhsil müəssisələrinə qəbulla bağlı hazırda elektron sistem işləyir. Valideynlər heç bir üçüncü tərəfə ehtiyac olmadan övladlarını bu müəssisələrə qeydiyyatdan keçirə bilərlər. Məktəbəqədər təhsil səviyyəsinə cəlb olunan uşaqların da sayının artırılması gələcək hədəflərdəndir. Biz bütün proseslərdə şəffaflıq tərəfdarıyıq".

Nazir brifinqdə təhsilin müxtəlif sahələrilə bağlı narazılıqlara münasibət bildirib: "Ancaq fikir verirsinizsə, hər hansı sahədə şəffaflıq bərpa edildiyi zaman narazılıq da artır. Çünki məsələlərin fərqli yollarla həllinə artıq alışılıb. Məsələn, MİQ müsabiqəsini də buna misal çəkmək olar. Əvvəlki illərə nəzər salsaq, builki müsabiqənin daha şəffaf keçirildiyini deyə bilərik. Hər il prosesin daha da yaxşılaşdırılmasına çalışırıq. Nəticə olaraq narazılıqlar hər zaman olub və olacaq da".



### Təhsil Nazirliyi imtahanların şəffaf keçirilməsində maraqlıdır

MİQ imtahanlarında sualların əvvəlcədən yayılması ilə bağlı suallara cavab verən E.Əmrullayev bu məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət ediləcəyini deyib. Onun sözlərinə görə, müəllimlərin işə qəbulu imtahanlarında riyaziyyat fənnindən sualların başqa tərəfə verilməsi yolverilməzdir: "Təhsil Nazirliyi imtahanların şəffaf keçirilməsində maraqlıdır: "Müəlliflə aramızda məxfilik müqaviləsi imzalanır. Müəllif də buna əməl etməlidir. Bununla bağlı lazımi addımların atılması üçün hüquq-mühafizə orqanlarına müraciət ediləcək. Sualların satılması ilə bağlı məsələ araşdırılır. Biz nöqsanın səbəbini araşdırırıq. Hansısa müəllim məsuliyyətsizliyə yol verib və bu məsuliyyətsizliyi hüquq-mühafizə orqanları ilə müəyyən ediləcək. Bir nəfərin məsuliyyətsizliyi 4 min insanın əməyini yerə vurub".

Nazirin sözlərinə görə, Bakının mərkəzində təhsil alan 10-11-ci sinif şagirdləri kütləvi şəkildə, məsələn, Qaradağda yerləşən bir məktəbdə təhsil almağa başlayır. 100-ə yaxın uşaq çox ucqarda olan bir məktəbə, hansısa keyfiyyəti ilə seçilməyən məktəbə kütləvi şəkildə gedirlər: "Sistem elektronlaşdırıldığı üçün indi bunu daha rahat görür və inzibati qaydada müdaxilə edə bilirlər. Bu gün təəssüf ki, şagirdlər və valideynlər üçün əsas məqsəd ali təhsil müəssisəsinə daxil olmaqdır. Bu, özü-özlüyündə çoxlu təşviş və rasional olmayan davranışlar yaradır. Bunun bir növü özəl təhsildir. Şagirdlərin bu gün repetitorlara verdiyi pullar özəl təhsil müəssisələrində olan təhsil haqqından az deyil. Ancaq niyə valideynlər bunu seçmir, başa düşmək çətindir. İkinci məsələ məktəbin içində nələr edilməsi ilə bağlıdır. Biz əgər mərkəzləşmiş imtahan ediriksə, repetitorluq üçün hər zaman münbit şərait olacaq. Yəni burada təhsilin keyfiyyəti rol oynamayacaq. Şərti olaraq bu gün Azərbaycan təhsilinin keyfiyyəti 200-300 baldır. Sabah bu bal qalxıb 360 da olsa, yenə də daha çox bal yığan qəbul olacaq. Ona görə də hər zaman kimin artıq pulu varsa, repetitor yanına gedəcək. Bu fikrim çox müzakirələrə səbəb olacaq. Amma istənilən halda insanlar repetitor yanına gedəcək. Çünki bizdə əsas kimdənsə yaxşı olmaqdır. Özünün yaxşı olmasına baxan yoxdur".

### Azərbaycanda icbari təhsili dövlət Azərbaycan dilində təmin edir

Nazir bildirib ki, Təhsil Nazirliyi olaraq, hər bir vətəndaş qarşısında borcları uşaqları təhsilə Azərbaycan dilində cəlb etməkdir: "Heç yerdə yazılmayıb ki, uşağı xarici dildə təhsilə cəlb etmək icbari məsuliyyəti, yaxud vəzifəsi var. Övladını rus bölməsinə qoymaq istəyən valideynlər tərəfindən bu düzgün anlaşılmır. Bizdə bəlli sayda rus bölməsində təhsil verən siniflər var və bu say sabitdir. Yenə də müxtəlif bölgələrdə əhalinin sıxlığından asılı olaraq, biz müxtəlif reallıqlarla üzləşirik. Bizim Naftalan şəhərində rus bölməsi sinfində 5 nəfər oturur. Amma əhalinin son dövrlər çox köçdüyü Xırdalan, Masazır kimi ərazilərin məktəblərində ənənəvi olaraq rus bölməsi olmayıb. Birdən-birə ora 10 minlərlə insan köçüb uşaqlarını rus bölməsinə qoymaq istəyəndə rus bölməsinin sayı artmır. Bizim əgər 100 yerimiz varsa, bunu 200 adam istəyirsə, biz 100 nəfərə yox demək məcburiyyətindəyik. Valideyn özünün evinin yanında uşağını Azərbaycan bölməsinə qoya bilər, oxuda bilər. Bu, onun hüququdur. Amma rus bölməsinə istəyirsə, o uşağını harada yer varsa, ora apara bilər".

Təhsil naziri Emin Əmrullayev qəbul imtahanlarında bal toplaya bilmədiyi üçün intihar edən abituriyentlərlə bağlı məsələyə münasibət bildirib.

Nazir bu gün keçirdiyi brifinqdə deyib ki, hər bir şagirdin, uşağın ölümü, intiharı faciədir: "Sözün düzü, biz bunu hər zaman aşağı bal yığmış şagirdlər arasında görmürük. Təhsilin bütün mahiyyəti şagirddir. Bu mənada istər valideynlər, istərsə də müəllimlər başa düşməlidir ki, həyatın mənası ali təhsil müəssisəsinə qəbul deyil. Birmənalı olaraq uşaqlara qarşı qısnama qəbuledilməzdir. Hər bir adamın öz övladına dəstək olması onun valideyn borcudur".

### Azərbaycanda təhsilin müddətinin artırılması təklif edilir

Nazirin sözlərinə görə, təhsilin keyfiyyətinə təsir edən əsas amil təhsil günlərinin sayıdır. Bir sıra ölkələrdə təhsil həftələrinin sayı təxminən 42-44 həftədir, Azərbaycanda isə bu müddət 36 həftədir.

Nazir hesab edir ki, təhsil müddətinin artırılması yaxşı olardı. "Təhsil işçisi olaraq hesab edirəm ki, bu müddətin artırılması yaxşı olardı. Lakin cəmiyyətimiz müddətin uzadılmasına ağrılı məsələ kimi baxır. Tədris müddətinin iyunun 14-nə kimi uzadılması ilə bağlı islahatımız bu günə kimi də qınanılır. Bunun insan sağlamlığına vura biləcəyi zərərlə bağlı ciddi miflər mövcuddur. Oxumaqdan bu günə kimi kiməsə ciddi ziyan gəlməyib. Bu narahatlıqların elmi əsası yoxdur. Uşaq nə qədər təhsillə çox məşğul olsa gələcəyi yaxşı olar".

### Sentyabrda Ağalı kəndində zəng çalınacaq və tədris başlayacaq

"Yeni tədris ili üçün Zəngilan rayonunun Ağalı kəndində zəng çalınacaq və müəllimlər tədrisə başlayacaq. Bu da bizi çox sevindirir. Bunun üçün Prezident İlham Əliyevə təşəkkür edirəm"- deyə E.Əmrullayev əlavə edib.

Nazir xatırladıb ki, Ağalı kənd məktəbinə artıq direktor təyinatı da olub: "Müəllimlərin seçiminə gəlincə, köç prosesinin başa çatmasını gözləyirik. Çünki bilməliyik ki, məktəbdə nə qədər şagird təhsil alacaq. Sevindirici fakt odur ki, müəllim sayımız kifayət qədərdir".

Qeyd edək ki, bağçalarda aparılan monitorinqlərin nəticələrinə əsasən işində yol verdiyi nöqsanlara görə 51 nəfər bağça müdiri vəzifəsindən azad edilib. Bağça müəllimlərinin işə qəbulu elektron qaydada olacaq: "Bağçalarla bağlı proses bütün bölgələri əhatə edir. Monitorinqlər heç vaxt bitməyəcək. Bu, dövri prosesdir. Bizim müəyyən mənada bir neçə yüz adama da töhmət, xəbərdarlıq vermişik. Problemlər çoxdur, amma həlli mümkün olmayan problem də yoxdur. Növbəti illərdə bizi gözləyən ciddi problem heyətin peşəkarlıq səviyyəsidir. Digər inzibati işlərə qəbul zamanı yol verilən nöqsanlar da aradan qaldırılacaq".

**Şəymən Bayramova**

# Soçidə yalnız Ukrayna savaşından danışılmayacaq

## Ərdoğanın Putinlə görüşündə ABŞ-a və Qərbə ciddi mesajlar olacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyaya səfər edəcək. Bu barədə Türkiyə Prezident Administrasiyası məlumat yayıb.**

Məlumatda qeyd olunur ki, avqustun 5-də baş tutacaq səfər zamanı Türkiyə Prezidenti Soçidə Rusiya lideri Vladimir Putinlə görüşəcək.

**Səfərin əhəmiyyətini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Elçin Xalidbəyli bildirib ki, Ərdoğanın bu səfəri indiki situasiyada böyük önəm daşıyır:** "Bu səfərin təşkil olunmasının özü belə, geopolitik mesaj xarakteri ilə yüklənib. Rəsmi Ankara ABŞ və Qərbə mesaj verir ki, Türkiyə Rusiya ilə diplomatik təmas imkanlarını hələ də qoruyur. Eyni zamanda, Kremlə də anladılır ki, Türkiyə Rusiyanın sülh danışıqlarında vasitəçiliyinə ümid bəsləyə biləcəyi yeganə ölkədir. Yəni həm ABŞ və Qərb, həm də Rusiya üçün Türkiyə hazırda diplomatik vasitəçilik potensialı mövcud olan önəmli siyasi güc mərkəzinə çevrilib".



Ekspert onu da qeyd edib ki, Türkiyə prezidentinin Rusiyaya səfəri yalnız Ukrayna savaşı və onun ətrafında yaranmış beynəlxalq situasiya ilə bağlı deyil: "Hazırda Türkiyə və Rusiya arasında da kifayət qədər ciddi problemlər, ziddiyyətlər mövcuddur. İranda keçirilmiş sonuncu Ərdoğan-Putin görüşündə bəzi məsələlər ilə bağlı Türkiyə və Rusiyanın maraqlarının toqquşduğunu göstərdi. Ərdoğan Türkiyənin milli təhlükəsizlik maraqları çərçivəsində Suriyada antiterror əməliyyatlarının anonsunu verdi. Ancaq Rusiya və İran buna qarşı olduqlarını vurğuladılar. Halbuki, nə qədər qəribə də olsa, Rusiya prezidenti Türkiyənin antiterror əməliyyatına qarşı olmasını Suriyanın suverenliyi və ərazi bütövlüyü ilə arqumentləşdirməyə çalışdı. Lakin Rusiya hazırda müstəqil Ukraynanın ərazilərinə qoşun yeridib, bu ölkənin suveren hüquqlarını kobud şəkildə pozub. Yəqin ki, Prezident R.T.Ərdoğan Kreml sahibinin Türkiyənin Suriyada antiterror əməliyyatları keçirmək planlarına neytral qalmasına nail olmağa çalışacaq.

Böyük ehtimalla Rusiyanın Soçi şəhərində planlaşdırılan Ərdoğan-Putin görüşündə Cənubi Qafqazda mövcud olan geopolitik stiuasiya, Azərbaycan-Ermənistan, Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi, regionda nəqliyyat-kommunikasiya xətlərinin açılması kimi bir sıra önəmli mövzular da müzakirə edilə bilər. Eyni zamanda, əsas müzakirə mövzuları sırasında Türkiyənin vasitəçiliyi ilə imzalanmış və "taxıl dəhlizi"nin yaradılmasını nəzərdə tutan İstanbul anlaşması ilə bağlı məsələ də yer alacaq. Çünki İstanbul anlaşmasının imzalanmasından heç bir sutka keçməmiş Rusiya Ukraynanın Odessadakı limanlarını raket atəşinə tutaraq, həmin sənədin tələblərini kobud şəkildə pozub. Yəqin ki, Türkiyə lideri R.T.Ərdoğan Prezident Vladimir Putindən "taxıl dəhlizi" İstanbul anlaşmasına Rusiyanın riayət edəcəyinə təminat almağa çalışacaq".

**E.Xalidbəyli söyləyib ki, Rusiyaya səfər ərəfəsində Türkiyə lideri Putinin "Bayraktar TB2" PUA-larının ortaq istehsalına maraq göstərdiyini vurğulayıb:** "Prezident R.T.Ərdoğanın bu açıqlaması gözlənilməz xarakter daşıyır, ancaq qətiyyən təsadüfi deyil. Ərdoğan olduqca təcrübəli dövlət xadimidir və heç vaxt boşuna hər hansı məlumatı dövriyyəyə buraxmır. Türkiyə liderinin Rusiyanın "Bayraktar TB2" PUA-ları ilə maraqlanmasını vurğulamasında da yəqin ki, müəyyən hədəfləri mövcuddur. Yəqin ki, yaxın vaxtlarda bu hədəflər təxmini də olsa, aydınlaşmağa başlayacaq. Hələliksə, Ərdoğanın "Bayraktar TB2" açıqlamasını həm ABŞ və Qərbə, həm də Rusiyaya yönəlik üstüörtülü hərbi-siyasi mesaj olduğunu düşünmək üçün kifayət qədər əsaslar var".

**Çimnaz Şahlar**

# Bu ildən məktəblərdə "Ortaq Türk tarixi" tədris olunacaq

## Bu addım bizim bugünümüz və gələcəyimiz üçün çox önəmlidir

**Təhsil naziri Emin Əmrullayev Türk Dövlətləri Təşkilatına üzv ölkələrin məktəblərində "Ortaq Türk tarixi" və "Ortaq Türk coğrafiyası" fənlərinin tədrisinə dair məsələyə aydınlıq gətirib. Nazirin sözlərinə görə, "Ortaq Türk tarixi" dərsliyi bu ildən tədris olunacaq.**



***Faiq Ələkbərli: "Nazirin "İnanmıram ki, bu fənlərdən gələcəkdə buraxılış və qəbul imtahanlarına nələrsə salınsın" sözləri də aydın deyil. Əksinə, hər iki fənn qəbul imtahanlarına salınmalıdır"***

"Ortaq Türk coğrafiyası" dərsliyi hazır olduqdan sonra fənnin tədrisinə başlanılacaq: "Burada əsas məqsəd şagirdləri ideoloji cəhətdən hazırlamaq, türk dövlətləri haqda məlumat aşılamaqdır. İnanmıram ki, bu fənlərdən gələcəkdə buraxılış və qəbul imtahanlarına nələrsə salınsın".

**Ortaq türk tarixinin orta məktəblərdə tədris olunmasını "Şərq"ə dəyərləndirən türkoloq-alim Faiq Ələkbərli deyib ki, bütün hallarda "Ortaq Türk tarixi" və "Ortaq Türk coğrafiyası fənlərinin tədris proqramına salınması çox önəmlidir. Alimin sözlərinə görə, prosesin nəhayət başlaması təqdirəlayiq haldır:** "Bütün türk dövlətləri və onların xalqları ortaq türk tarixindən xəbərdar olacaqlar. Eyni zamanda ortaq keçmişimiz, ortaq mədəniyyətimiz, dövlətçilik ənənələrimiz haqqında yeni yetişən nəsil bilgili olacaq. Bunlar çox vacibdir. Lakin nazir Emin Əmrullayevin "dərsliyin hazırlanmasında əsas məqsəd şagirdləri ideoloji cəhətdən hazırlamaqdır" fikri doğru deyil. Burada söhbət ancaq ideologiyadan getmir. Türk xalqlarının yaxınlaşması, dövlətlərin ortaq nöqtəyə gəlməsi sadəcə ideoloji məsələ sayılmır. Bu addım bizim bugünümüz və gələcəyimiz üçün çox önəmlidir. O baxımdan nazirin "İnanmıram ki, bu fənlərdən gələcəkdə buraxılış və qəbul imtahanlarına nələrsə salınsın" sözləri də aydın deyil. Əksinə, hər iki fənn qəbul imtahanlarına salınmalıdır. Gənclərimiz ilk növbədə türk dünyasının tarixindən hazırlıqlı olmalı, bu sahədə imtahanlara cəlb olunmalıdır. Bu fənlərə ciddi yanaşılmalıdır".

**F.Ələkbərli qeyd edib ki, ortaq dərsliklər türk gəncliyinin vahid tarixə, mədəniyyətə köklənməsində mühüm rol oynayacaq:** "Xüsusən də, Türk Dövlətlər Təşkilatının gələcəyinin uğurlu olması məhz ortaq türk tarixindən, coğrafiyasından, ədəbiyyatından asılıdır. Hər bir türk dövlətinin güclü gələcəyi ortaq tariximizi, fəlsəfəmizi, mədəniyyətimizi bilməkdən keçir. Dünyanın gələcəyi milli dəyərləri, mədəniyyəti qoruyub saxlayan, mühafizə edən xalqlarla bağlıdır. Ümid edirəm, "Ortaq Türk tarixi" bütün türk xalqlarının maraqlarının uzlaşmasına da xidmət edəcək".

**İsmayıl Qocayev**

# Piyada keçidlərindən istifadə etməyənlər cərimələnib



**Piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının alınması, onların arasında intizamın möhkəmləndirilməsi məqsədilə Zaqatala Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfində profilaktik tədbirlər keçirilib.**

DİN-in mətbuat xidmətinin Şəki regional qrupundan "Şərq"ə verilən məlumata görə, xüsusilə də hərəkətin intensiv olduğu küçə və prospektlərdə keçirilən tədbirlər zamanı ərazidə piyada keçidlərinin olmasına baxmayaraq, bəzi şəxslərin yolu müəyyən edilməyən yerlərdən keçdikləri aşkarlanıb. Onlara yol hərəkəti qaydaları haqqında ətraflı məlumat verilib və bu kimi halların özləri ilə yanaşı digər hərəkət iştirakçılarının da sağlamlığı üçün təhlükəli olduğu izah edilib.

Həmin şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib olunub.

# Azərbaycanda tədavülə yenilənmiş metal pullar buraxılıb

**Mərkəzi Bank yenilənmiş 10 və 50 qəpiklik metal pul nişanlarını tədavülə buraxıb.**




Yenilənmiş metal pul nişanlarının texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz olaraq saxlanılıb. Yenilənmiş metal pul nişanları hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.

*Qeyd edək ki, Mərkəzi Bank tərəfindən 10, 20 və 50 qəpiklik metal pul nişanlarının dizaynına Dövlət Gerbi və istehsal ili əlavə olunaraq yenilənməsi həyata keçirilib. Yenilənmiş 20 qəpiklik metal pul nişanının ötən ilin dekabr ayından tədavülə buraxılması təmin edilib.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

# "Azərbaycançılığı dövlətin milli siyasi məfkurəsinə çevirməliyik"

### Vazeh Əskərov: "Məhz azərbaycançılıq ideologiyası 30 ildən bəri davam edən münaqişənin bitməsinə və Azərbaycanın qələbə çalmasına yol açdı"



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Zaqatala bölgəsi üzrə şöbəsi, Qax Rayon İcra Hakimiyyəti (RİH) və YAP Qax Rayon Təşkilatının birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsində azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda seminar keçirilib.**

Tədbirdə DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin məsləhətçisi Ruslan Əfəndiyev, Qax RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Orxan Səmədov, rayon Gənclər və İdman İdarəsinin rəis müavini Elvin Həsilov, rayon təhsil şöbəsinin əməkdaşı Zahid Hacılı, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin zəngin irsinin indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyi olduğundan bəhs edilib. O cümlədən Ulu Öndərin azərbaycançılıq ideyasının milli həmrəyliyi, təəssübkeşliyi, bütövlüyü təmin edən və vətənpərvərlik hissini gücləndirən məfkurə olduğu qeyd olunub. Azərbaycançılıq ideologiyasının milli dövlətçiliyimizin inkişafında mühüm rola malik olduğu vurğulanıb. Bu ideologiyanın dünya azərbaycanlılarını milli maraqlarımız ətrafında birləşdirməklə yanaşı, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafında vacib amil olduğu bildirilib. Sonda Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən ərsəyə gətirilən "Heydər Əliyev və azərbaycançılıq" adlı sənədli film nümayiş edilib.

Qeyd edək ki, hazırda dünyada gedən qloballaşma prosesində yalnız güclü olan xalq qələbə qazana, özünün milli, mənəvi, dini, tarixi ənənələrini qoruyub gələcək nəsillərə ötürə bilər. Dünyanın harasında olmasından, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Azərbaycan dövlətinin, dövlətçiliyinin güclənib, qüdrətlənməsi, xalqımızın gələcək rifah halında yaşaması naminə çalışmalı, fəaliyyət göstərməli, əlindən gələni əsirgəməməlidir. Azərbaycançılıq ideologiyasının bizi birləşdirən meyar olmasını əsas tutaraq, hər birimiz buna uyğun əməli fəaliyyət sərgiləməliyik. Ancaq milli birliyi, həmrəyliyi təmin etməklə üzləşdiyimiz bütün çətinlikləri dəf edə bilərik. Biz ötən il 44 günlük müharibə dönəmində də bunun şahidi olduq və gördük ki, bizim birliyimiz qələbəmizi şərtləndirən amillərdən biri, bəlkə də birincisidir. Nəzərə almaq lazımdır ki, bundan sonra qarşıda yenə də çətinliklərlə üzləşə bilərik və artıq davam etməkdə olan qloballaşma prosesinin mənfi xüsusiyyətlərini dəf etmək, böyük tarixə malik bir xalq kimi qalib çıxmağımız üçün azərbaycançılıq ideologiyasını daha da gücləndirmək, ələlxüsus buna sadiq olmaq lazımdır. Çünki azərbaycançılıq ideologiyası milli dövlətçiliyimizin inkişafında mühüm rola malikdir və məhz azərbaycançılıq ideologiyası bizi birləşdirən dəyərdir.

Milli məfkurəmizin daha çox təbliğ edilməsi, gənclər arasında vətənpərvərlik ruhunun yüksəldilməsi işi günün aktual məsələlərindən birini təşkil edir. Bu vəzifə isə birmənalı şəkildə ölkə KİV-nin üzərinə düşür. İnformasiya əsrində yaşadığımızı nəzərə alsaq, gənclərin milli məfkurəmizlə daha yaxından tanış olması, bu haqda çox bilgilənməsi üçün mütəmadi olaraq bu istiqamətdə təbliğat aparılmalıdır. Bu, azərbaycançılıq ideologiyasının cəmiyyətdə daha möhkəm əsaslarda bərqərar olmasını təmin edir.

**Dosent Vazeh Əskərovun sözlərinə görə, azərbaycançılıq ideologiyası hər şeydən əvvəl, ilk növbədə, özünü dərk etmək ilə xarakterizə olunma anlamına gəlir.** Azərbaycançılıq təkcə Azərbaycan Respublikasında yaşayan etnik azərbaycanlıları və ya etnik xalqları deyil, eyni zamanda, harada yaşamasından və hansı ölkə vətəndaşı olmasından asılı olmayaraq bütün dünyada yaşayan azərbaycanlıların və qeyri azərbaycanlıların milli-mənəvi dəyərlərini ifadə edən bir məfkurədir: "Eləcə də milli mənsubiyyət və dinindən asılı olmayaraq Azərbaycana mənən və fiziki bağlı olan və onun nüfuzunu uca tutan hər bir insan azərbaycançılıq ideologiyasının yaşadanına çevrilir. Ümummilli lider, görkəmli ictimai-siyasi xadim Heydər Əliyev deyirdi: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır".

"Azərbaycançılıq" termininin yaranmasında əsas ideologiya ölkədə yaşayan müxtəlif etnik qrupları və xalqları dövlətin ümumi mənafeyi ətrafında birləşdirmək olub. Bu terminin işlədilməsinə əsasən Sovetlər birliyindən sonra rast gəlinsə də sözügedən ideologiyasının müstəqillik illərində daha öncə ölkədə yaşayan müxtəlif xalqların, millətlərin fərqli mədəniyyətləri və adət-ənənələrini qoruyub saxlayaraq xalqların mədəni müxtəlifliyini həm müdafiə, həmçinin birgə inkişaf etdirmək dövlətin inkişafı istiqamətində atılmış bir addım kimi böyük rol oynamışdı. Qeyd etmək yerinə düşər ki, hələ Ulu Öndərin ölkəmizə rəhbərliyinin birinci dövründə, 1969-1982-ci illərdə Azərbaycanda məhz onun rəhbərliyi ilə Azərbaycan dilinin əhəmiyyəti artıb və ana dilinə olan diqqət və qayğı eləcə də dövlət qurumlarında azərbaycanlıların yüksək vəzifələrə gətirilməsi və bu kimi bir çox misalları gətirmək olar.

Həmin dövrdə Azərbaycanda ən qabaqcıl texnologiyanın istehsalı, elmin qabaqcıl nailiyyətlərinin istehsalata tətbiqi, yüzlərlə gəncin Sovet İttifaqının ən nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsi, böyük alim ordusunun yetişməsi, xalq təsərrüfatının dinamik inkişafı, mədəniyyətin çiçəklənməsi, təhsilin inkişaf etdirilməsi sürətlə gedirdi. Ulu Öndər Heydər Əliyevin gerçəkləşdirdiyi bu siyasətin təməlində Azərbaycanın gələcəyi, milli dövlətçilik düşüncəsinin dayandığını, azərbaycançılıq ideologiyasını illər ötdükdən sonra artıq Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra daha aydın anlaşılacaqdı. Belə ki, azərbaycançılıq ideologiyası bir termin kimi yaranma tarixi 1990-cı illərin əvvəllərinə təsadüf etsə də qürurla qeyd edə bilərik ki, istər sovet dövründə, istərsə də Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ölkədə azərbaycançılıq ənənəsinin formalaşmasının əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu günə qədər Ulu Öndərin ideyalarının layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir".

**V.Əskərovun sözlərinə görə, Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra azərbaycançılıq** ideologiyasının davam etdirilməsində əsas məqsəd ölkədə yaşayan etnik qrup və xalqları xüsusən müstəqilliyin ilk illərində ölkədə baş verən ifrat millətçilik və separatçılıq mühitində dövlətçiliyi düzgün inkişaf etdirməkdən ibarət idi. 1990-ci illərin əvvəllərində elə təzəcə müstəqilliyini qazanmış Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzü, dərin siyasi, iqtisadi və sosial böhranla üzləşmişdi. Ölkənin düşdüyü belə bir şəraitdə Azərbaycan xalqı xilaskar kimi Heydər Əliyevi gördü və onu ölkəyə rəhbərlik etməyə dəvət etdi: "Ötən illər ərzində Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə sadiq qalaraq onu inkişaf etdirib. Belə ki, 1988-ci ildən Ermənistanla Azərbaycan arasında davam edən müharibə nəticəsində 20 faiz Azərbaycan torpaqlarının işğal faktını heç vaxt qəbul etməyən Azərbaycan münaqişənin birdəfəlik köklü həll olunması və ərazilərin işğaldan azad olunaraq köçkün və qaçqın soydaşlarımızın öz torpaqlarına geri qayıtması tələb kimi ortaya qoyulub. Bunun nəticəsi olaraq 2020-ci ildə 44 günlük müharibə dövründə biz Azərbaycan xalqının bir an belə dayanmadan necə vahid bir gücə çevrildiyinin və böyük əzm ilə vətəndaş borcunu göstərərək Müzəffər Orduya rəhbərlik edən Cənab Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək "Dəmir yumruğa" çevrildiyinin şahidi olduq. Məhz azərbaycançılıq ideologiyası 30 ildən bəri davam edən münaqişənin bitməsinə və Azərbaycanın qələbə çalmasına yol açdı.

Biz bundan sonra da azərbaycançılıq məfkürəsinin davam və inkişaf etdirilməsini, milli-mənəvi dəyərlərimizi, eləcə də adət-ənənələrimizi daima yaşadaraq vahid bir ideologiya ətrafında birləşdirilməsini və azərbaycançılığı Azərbaycan dövlətinin milli siyasi məfkurəsinə çevirməliyik".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Nazirin açıqlaması böyük çaşqınlıq yaradacaq

### İstənilən halda məktəbli təhsil ocağına məktəbli formasında gəlməlidir




**2022/2023-cü il tədris ilində Azərbaycanda tətbiq olunacaq yeni məktəbli formalarının ilkin qiymətləri məlum olub. Bu barədə AzTV-nin hazırladığı süjetdə məlumat verilib. Qeyd edilib ki, yeni formaların region və bölgələr üzrə rəng, material və modellərə görə fərqlənməsi təklif olunur. Bakı Tekstil Fabrikinin təsisçisi Səkinə Babayeva yeni məktəbli formalarının ilkin qiymətləri barədə danışıb: "İkili məktəbli formalarının qiyməti 30 AZN-ə yaxın olacaq. Üçlü və dördlü dəst olacaqsa, qiymət 55-65 manat arasında dəyişəcək".**

Təhsil naziri Emin Əmrullayev "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və digər məsələlərlə bağlı keçirdiyi brifinqdə məktəbli formalarından danışıb. Nazir bildirib ki, məktəbli formasının mahiyyəti budur ki, hamı bərabər olsun: "Hamı ev mühitini məktəbə daşımasın, kimsə varlı olmasına görə fərqlənməsin. Nazirlik yoxlamayacaq ki, niyə şagird forma geyinməyib. Nə də məktəb direktorunun haqqı var ki, forma tələb etsin. Məktəb qərar verdikdən sonra valideynlərin ona uyğun forma seçməsi məqsədəuyğundur. Ancaq heç kimin səlahiyyəti yoxdur ki, məcbur etsin ki, bu forma olmalıdır".

**Təhsil eksperti Elşən Qafarov məktəbli formalarının qiymətinə və nazirin bununla bağlı açıqlmasına münasibət bildirib. Ekspert "Şərq"ə açıqlamasında deyib ki, qiymətlər olduqca uyğundur:** "Burada əsas məsələ formanın keyfiyyətidir. Bu, şagirdin gigiyenik baxımdan sağlamlığı üçün vacib şərtdir. Digər tərəfdən əgər qiymətlər həqiqətən də 30-65 manat civarında dəyişirsə, çox ucuzdur və hər kəs üçün əlverişlidir. Düşünürəm ki, hər kəs bu formaları ala bilər".

**E.Qafarovun fikrincə, nazirin sözləri birmənalı qarşılanmayıb:** "Ümumi təhsil haqqında" qanunun 13-cü maddəsində konkret göstərilir ki, dövlət ümumtəhsil məktəblərində məktəbli formasının eskizlərini Nazirlər Kabineti təsdiq edir. NK-nın 17 mart 2020-ci il 96 nömrəli qərarında da konkret göstərilib ki, dövlət ümumtəhsil məktəblərində formalar bu eskizlər əsasında olmalıdır. İstənilən halda məktəbli təhsil ocağına məktəbli formasında gəlməlidir. Bu, bizim cəmiyyətdə sosial bərabərlik baxımından çox vacib bir addımdır. Amma "məktəb direktorları forma tələb edə bilməz" fikri böyük çaşqınlıq yaradacaq. Düşünürəm ki, nazir demək istəyir ki, məktəbli forması geyinməsəniz də olar. Amma qanun tələb edir ki, şagirdlər məktəbli forması geyinsin.

Digər tərəfdən dövlət narazılığın olmaması üçün sosial cəhətdən həssas olanların, müharibə vetaranlarının, qazi və şəhid ailələrinin məktəbli övladlarının forma ehtiyaclarını qarşılayarsa, məktəblərin böyük bir hissəsinin forma problemi həll olar. Mən şagirdlərin məktəbli forması geyinməsinin tərəfdarıyam. Nəticə etibarilə, tədris ilinin başlamasına 50 gün qalıb. Bu müddət ərzində müəyyən addımlar atılmalıdır.

Biz hələ bilmirik ki, hansı geyimdən nə qədər tikilməlidir, yaxud tikilibmi. Valideynlərin böyük bir hissəsi avqustun ilk həftələrindən məktəbli formalarını almağa başlayır.

Bu məsələ indiyə qədər həllini tapmalı idi. İnanaq ki, hər şey yaxşı olacaq və tədris ilinə yeni məktəbli forması ilə başlaya biləcəyik".

**Çimnaz Şahlar**

# Onlar qırmızı xəttimizdir

### Qazilərə yardım etmək, sonra da onu reklama çevirmək, deyiləsi dərd deyil

**Azərbaycanlı aparıcı gözdən əlil qazini təhqir edib. Tanınmış aparıcı Azər İsmayılov (Zahid) qazilərlə görüşüb, onlara müəyyən məbləğdə pul ianə edib. Lakin gözdən əlil olan Qarabağ qazisi Amil Əliyevə pulu verərkən ona, "sən onsuz da saya bilməyəcəksən" deyib.**




Aparıcının bu hərəkətini sosial şəbəkə istifadəçiləri sərt şəkildə tənqid edib.

A.Zahid məsələ ilə bağlı açıqlama verib. O bildirib ki, qazini təhqir etməklə bağlı yayılan xəbərlər əsassızdır:

"Videonun çox qısa hissəsini paylaşıblar. Görüntünü 10 gün əvvəl "TikTok" platformasında paylaşmışam. Videonu başqa cür montaj edib, təqdim ediblər. Bu gün bunu yayan "trol" qruplarının səs yazılarını hüquq-mühafizə orqanlarına təqdim edəcəyəm. Haqqımda video da paylaşırlar ki, Azər ölüb, döyüblər və s. Bu haqda da açıqlama verəcəm. Üç qazimizə öz cibimdən 1 600 manat pul verməyim bəzi insanlara xoş gəlmir. Qazi dostumdur. Onun üçün əlimdən gələni edəcəyəm. Bizim o qardaşla şəxsi zarafatımız var".

Qazi A.Əliyev isə A.İsmayılovun ondan üzr istəməli olduğunu vurğulayıb: "İki gündür telefonlarımız susmur. Hər yerdən zəng edirlər. Azərin həmin sözü dediyini sonradan videoda görmüşəm. Külək idi deyə eşitməmişəm. Aparıcı mənə 1530 manat pul verib. Azər gəlsin, mənə desin ki, bilməmişəm, söz ağzımdan çıxıb. Üzr istəsin və həmin videonu paylaşsın. Camaat da görsün ki, səhvini düzəltdi. Özümə zəng etməyib".

Amil Əliyev diqqətə çatdırıb ki, onun gözünün müalicəsi mümkündür. Amma bunun üçün müəyyən vəsait lazımdır: "Mənim verilişlərə çıxmağıma bir səbəb var. İki ildir evdəyəm. Bilirəm ki, buynuzlu qişa olarsa, gözümün biri görə bilər. Efirə, canlılara çıxmağa nə istəyim, nə də marağım var. Özümü göstərmək fikrində deyiləm".

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə açıqlamasında bildirib ki, hər bir işdə niyyət önəmlidir:** "Aparıcının qəsdən aşağılamaq, təhqir etmək məqsədi ilə elə bir ifadə işlətdiyini düşünmürəm. Doğrudur, uğursuz, yersiz zarafat etdi. Ona görə də ajiotaj yarandı. Burada əsas məsələ qazilərimizə dövlət qayğısıdır. Diqqət o qədər olmalıdır ki, belə layihələrdə iştirak etmək zərurəti duymasınlar. Şəhid ailələri, qazilər, veteranlar barəsində sosial müdafiənin təmin edilməsi, reabilitasiya baxımından qanun layihəsi qəbul olunmalıdır. Adıçəkilən qazi teleaparıcıdan şikayətçidirmi? Xeyr. Azər həmin qazilərə tənqid xarakterli yanaşan insanlardan daha çox yardım edir. Cəmiyyətimizdə kampaniyalaşma var. Sağlamlığını itirən şəxslər niyə hələ də kimlərəsə möhtac olmalıdırlar?! Nəyə görə qazi adına söykənərək, öz yaşayışlarını təmin etmək üçün mübarizə aparmalıdırlar?! İnanmıram, hər hansı qazi ehtiyacı olmadan müxtəlif platformalarda cəmiyyətə hədiyyə, jeton atmaları üçün müraciət etsin".

**"Reaksiya TV"nin aparıcısı, politoloq Rusif Məmmədsoy isə bildirib ki, qazi və şəhid ailələrinin qırmızı xəttimiz olduğunu nümayiş etdirə bilmədiyimiz müddətcə belə videolara çox rast gələcəyik:** "Özünü kim hesab edirsən?! Qardaşımız iki gözünü gənc yaşında, Vətən uğrunda verib, gəlib ki, sən birincisi ona pul verəsən, sonra da güləsən?! Ümumiyyətlə, kimsə nəyə görə qaziyə pul verməlidir? Çox qəribə ölkədə yaşayırıq. Qazi adı çox yüksək pillədir. Ölkəmizdə onlara maddi yardım etmək və bunu reklama çevirmək tendensiyası yaranıb. Deyiləsi dərd deyil".

**Sücayət Mehti**

# Yoluxma sayı artsa məktəblər bağlana bilər

## Təhsil naziri Emin Əmrullayev də, ekspertlər də bu halı mümkün hesab edir



**Son günlərdə dünyada, eləcə də ölkəmizdə koronavirusa yoluxanların sayında artım müşahidə olunur. Ötən gün Azərbaycanda 306 nəfər koronavirusa yoluxub. Aktiv xəstələrin sayı isə 1 977 nəfər təşkil edir. Digər ölkələrdə də vəziyyət ürəkaçan deyil. Koronavirusa ən çox yoluxma halları ABŞ-da, Hindistanda, Braziliyada, Fransada, Almaniyada aşkarlanıb. Ümumilikdə, dünyada koronavirusa yoluxanların sayı 574 316 254 nəfərə çatıb.**

Digər tərəfdən yeni infeksiya növü olan meymunçiçəyi virusu dünyada yayılmağa davam edir. Elə bu səbəbdən Ümumdünya Səhiyyə Təşkilatı meymunçiçəyi virusu üçün beynəlxalq fövqəladə hal elan edib.

Belə bir vəziyyətdə ən çox narahat olan şəxslər valideynlərdir. Məktəblərin açılmasına ay yarım qaldığı bir vaxtda valideynləri maraqlandıran əsas məsələ məktəblərin açılıb-açılmayacağıdır. Yoluxma artan templə davam etdiyi bir dönəmdə şagirdlərin məktəbə geri qayıtması müəmmalı məsələ kimi qalmaqda davam edir.

Bu məsələyə Təhsil naziri Emin Əmrullayev də brifinqdə jurnalistlərin suallarını cavablandırarkən toxunub. O bildirib ki, pandemiya məsələsində sürprizlər hər zaman olur: "Payız aylarında koronavirusa görə ayrı-ayrı məktəblərdə siniflər bağlana bilər. Məktəblərin tamamilə bağlanması gözlənilmir".

**Təhsil eksperti Elçin Əfəndi durumla bağlı öz gözləntilərini "Şərq"lə bölüşüb. Ekspertin sözlərinə görə, aktiv xəstələrin sayı artarsa, müəyyən məhdudiyyətlər gözlənilə bilər:** "Koronavirusla bağlı hazırkı vəziyyətin təhlilində təkcə ölkəmizdə deyil, dünyanın bir çox ölkəsində yenidən yoluxma hallarının artdığını görürük. Amma əvvəlki illərə nisbətən vəziyyət az da olsa, ürəkaçandır. İnsanların əksəriyyəti vaksinasiya prosesindən keçib. "Buster" dozalar vurulub. Nəticə etibarilə, yalnız faktiki yoluxma halı sürətlənərsə və aktiv xəstə sayı mövcud çarpayı ehtiyatının sayına çatarsa, müvafiq məhdudiyyətlərin tətbiq olunması gözlənilər. O cümlədən təhsil sahəsində də distant təhsil bərqərar ola bilər. Meymunçiçəyi virusuna görə isə ciddi qapanmaların olacağını düşünmürəm. Çünki bu infeksiya hava yolu ilə yox, sıx təmas vasitəsi ilə yayılır".

**E.Əfəndinin fikrincə, təshil onlayn qaydada təşkil olunmamalıdır:** "Dərslər ənənəvi qaydada davam etməlidir. Çünki bu zaman dərslərin mənimsənilməsi daha effektiv olur. Yəqin ki, qarşıdakı dövr ərzində Təhsil Nazirliyi tərəfindən müvafiq olaraq 2022-2023-cü tədris ilinin hansı qaydada keçiriləcəyi ilə bağlı ictimaiyyətə məlumat veriləcək".

**Çimnaz Şahlar**



# Afrikada "Borçalı" adlı içməli su quyusu qazıldı

## Bu xeyirxah işə Gürcüstandan 65 nəfər maddi yardım göstərib

**Gürcüstanda yaşayan xeyirxah insanlar tərəfindən Kamerunda "Borçalı" adlı içməli su quyusu qazılaraq, əhalinin istifadəsinə verilib. Həmin su quyusunun qazılmasında məqsəd bölgədə olan içməli su probleminin həllinə nail olmaqdır.**

"Ümid Yardım Fondu"nun rəhbəri Minurə Mustafayevanın sözlərinə görə, Afrikada açılan su quyusu sözügedən fond və Gürcüstanda yaşayan xeyirxah insanlar tərəfindən maliyyələşdirilib. Onun sözlərinə görə, su quyusunu açdırdıqları bölgədə içməli su problemi var: "İnsanlar yağış suyundan və müxtəlif göl sularından istifadə edirlər. Mən də belə qərara gəldim ki, bu cür bir təşəbbüs həyata keçirək və biz də bir su quyusu qazdıraq. Mənim təşəbbüsümü dostlarım bəyəndilər və həmin su quyusunun ərsəyə gəlməsində mənə köməklik göstərdilər. Su quyusunun açılmasında ümumilikdə 65 nəfər maddi yardım göstərdi. Mənə bu işdə Afrikadan bir nəfər köməklik göstərdi. Quyunun qazılmasına Afrikada olan şəxs nəzarət edirdi. O da orada xeyirxah işlərlə məşğul olur. Artıq su quyusu hazırdır. Açılışı olacaq".

**Minurə Mustafayevanın dediyinə görə, həmin bölgədə açılan su quyusu artıq ikincidir:** "Su quyusunun açılmasına 1 200 dollar vəsait xərclənib. Bundan əvvəl də həmin bölgəyə yaxın ərazidə su quyusu qazılaraq, istifadəyə verilmişdi. Afrikada su 100-150 metr dərinlikdən çıxır". M.Mustafayeva düşünür ki, həm Afrikada, həm də Gürcüstanda bu cür xeyirxah işlərini davam etdirsin və daha çox su quyuları qazdıraraq, əhalinin istifadəsinə versinlər.

**İsmayıl**

# Bölgə turizmini dirçəltmək müşkül məsələdir

## Hər şey var, amma reklam, məlumatlandırma yoxdur

**Turizm mühüm gəlir mənbəyidir. Bu sahənin gəlirləri bir sıra inkişaf etmiş ölkələrdə dövlət büdcəsinin formalaşmasında həlledici faktordur.**

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində, digər sahələrlə yanaşı, turizmin inkişafı da Prezident İlham Əliyev tərəfindən prioritet istiqamətlərdən biri kimi müəyyən olunub. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər respublikamızda müasir tələblərə cavab verən turizm infrastrukturunun yaradılması istiqamətində çox mühüm işlər görülür. Bakı ilə yanaşı regionlarımıza da turistlərin cəlb edilməsi istiqamətində məqsədyönlü iş aparılır. Amma bu sahədə hələ də ciddi bir irəliləyiş yoxdur.

Bölgələrimizdə də gəzməli-görməli yerlər kifayət qədərdir. Nəzərə alsaq ki, bir çox bölgələrimizdə müasir infrastruktur, kommunikasiya xətləri mövcuddur, turistlər üçün bunlar da cəlbedici olmalıdır. Lakin deyil.

Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə görə, bölgələrimiz xarici turist cəlb etməkdə paytaxt otellərində yenə də uduzurlar:

Azərbaycana gələn turistlərin 80 faizi Bakı şəhərinə üstünlük verirlər. Bu o deməkdir ki, ölkəyə gələn hər 100 turistdən cəmi 20-si Bakıdan kənara, rayonlara gedirlər. Turistlərin ikinci ən çox üstünlük verdiyi rayon Qəbələdir.



***"İndi internet əsridir. İnsan evində oturub məlumat əldə etmək və buna uyğun da hərəkət etmək istəyir. Səyahətə hazırlaşanlar bütün prosedurları onlayn qaydada həll edirlər. Bizim turizm agentlikləri, şirkətləri isə bu məsələdə çox ləng işləyir"***

**İqtisadçı Fuad İbrahimovun "Şərq"ə açıqlamasına görə, bu problemin səbəbi turizm şəbəkəsindəki boşluqlardır. Burada dövlət nəzarəti və ya dövlət orqanlarına aid bir iş yoxdur. Bu, sırf turizm şəbəkələrinin passivliyinin nəticəsidir. F.İbrahimov bildirib ki, turizmdə ən əsas məsələ reklam və təbliğatdır:**

"Bu da məlumatların ötürülməsindən, məlumatların çatdırılmasından ibarətdir. Hər hansı xarici ölkə vətəndaşı tutalım, Masallı haqqında haradan məlumat əldə edə bilər? Lap tutalım, axtarış verdi və Azərbaycanın gözəl bölgələri barədə məlumatlar çıxdı qarşısına. Bununla iş bitmir. İnsanları cəlb etmək lazımdır. Cəlbedici təkliflər olmalıdır, turistik paketlər təqdim olunmalıdır. Sən turistə nə vəd edirsən, bax, bu, önəmlidir. Biz Bakıda əyləşib Türkiyənin istirahət məkanları haqqında nə qədər bilgi əldə edirik. Məsələn, Rusiyanın "Mineralnıye Vodı" kurort zonası haqqında nə qədər informasiyalar, cəlbedici turpaketlər təqdim edilir. İndi internet əsridir. İnsan evində oturub məlumat əldə etmək və buna uyğun da hərəkət etmək istəyir. Səyahətə hazırlaşanlar bütün prosedurları onlayn qaydada həll edirlər. Bizim turizm agentlikləri, şirkətləri isə bu məsələdə çox ləng işləyir. Hər şey var, amma reklam yoxdur, məlumatlandırma yoxdur. Turizm şirkətləri provayderlərlə əməkdaşlıq etməlidir. Əcnəbi ölkəyə ayaq basan kimi Azərbaycanın mobil rabitə şəbəkəsinə qoşulmalı və ona davamlı məlumatlar daxil olmalıdır. Harada nə var, hara necə getmək olar, qiymətlər necədir... Turistlər məlumatsız olduqları üçün bölgələrə gedə bilmirlər. Çünki turizm şirkətləri informasiya texnologiyalarından istifadə etmirlər. Məsələn, Gürcüstan-Azərbaycan birgə turizm layihəsi işlənə bilər. Gürcüstan da təbliğat, reklam işlərində çox inkişaf edib. Daimi təbliğat və reklam olmalıdır ki, turistlər də onları maraqlandıracaq məlumatları əldə etsinlər. Bölgələrdə təkcə mehmanxana, otel tikməklə turizmi inkişaf etdirmək çətindir".

**Şəymən**

### Təbrik edirik!



**Rasimi 12 yaşı** tamam olması münasibətilə təbrik edirik, ona uzun ömür, cansağlığı və dərslərində uğurlar arzulayırıq.

**Təbrikə babası Həsən bəy də qoşulur.**

# Eldəniz Məmmədov paylaşıb

## Mətanət İsgəndərlinin fotoşopsuz şəkli təəccübləndirdi



**Əməkdar artist Mətanət İsgəndərlinin fotoşopsuz şəkli yayılıb.**

Axşam.az xəbər verir ki, sözügedən fotonu müğənni Eldəniz Məmmədov paylaşıb. O, Şəmkirdə toy məclisində birlikdə olduqlarını vurğulayıb.

İsgəndərlinin şəkli izləyiciləri təəccübləndirib. Bir çoxları onun nə üçün bu qədər dəyişdiyini vurğulayıblar. Onlar ifaçının əməliyyatdan sonra yaxşı görülmədiyini yazıblar.

*Qeyd edək ki, xeyli çəki alan M.İsgəndərli mədəkiçiltmə əməliyyatı etdirib.*


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2081


# "Facebook"un qurucusu işçisinin sualından dəhşətə gəldi

## İyunun 30-da keçirilən iclasda baş verənlər bəzi əməkdaşlara böyük təsir edib



(Əvvəli səh: 7-də)

**İddiaya görə, görüşdə Mark Zukerberq "Meta"nın aşağı performans göstərən işçiləri işdən çıxarmaq planlarını açıqladığı zaman onun işçilərindən birinin verdiyi sual böyük səs-küyə səbəb olub.**

Zukerberq əvvəlcə məəttəl qaldı, sonra işçisinin sualına cavabını cilovlamaqda çətinlik çəkdi. Zukerberq gələn il işə qəbulun normaldan aşağı olacağını və hazırkı işçilərdə azalma olacağını açıqlasa da, işçilərindən biri Kovid-19 prosesi zamanı işçilərə verilən əlavə məzuniyyətlərin 2023-cü ildə də davam edib-etməyəcəyini soruşub. ABŞ-ın texnologiya və media xəbər şəbəkəsi "The Verge" tərəfindən əldə edilən səs yazısına görə, Zukerberq əməkdaşının sualına belə cavab verib: "Hmm, tamam. Sual-cavabın qalan hissəsindəki tonumdan buna reaksiyamı təxmin edə bilərsiniz".

İşçisinin sual verməsindən sonra işlər çox qızışdı və Zukerberq əlavə edib: "Həqiqətən, şirkətdə yəqin ki, burada olmamalı bir qrup insan var". İşçilərdən bəziləri Zukerberqin cavabına məəttəl qalıb, bəziləri isə Zukerberqlə razılaşıb.

İşçilərin mesajlaşma platformasında bəzi işçilər "Mark indicə bu şirkətdə bura aid olmayan bir qrup insan olduğunu söylədimi?" deyə soruşulur. Digər bir qrup işçi isə Mark Zukerberqin bu münasibətini düzgün hesab etdiklərini bildiriblər. Onlardan biri yazıb: "İndi müharibə vaxtıdır, bizə müharibə zamanı baş direktor lazımdır".

"Meta" sözçüsü Joe Osborne "The Verge"ə açıqlamasında deyib:

"Davamlı təsirə malik olmaq istəyən hər bir şirkət nizam-intizamlı prioritetləşdirmə tətbiq etməli və məqsədlərə çatmaq üçün yüksək intensivliklə işləməlidir. Bu səylər haqqında hesabatlar bu diqqətə və iş tərzimiz haqqında artıq ictimaiyyətə paylaşdıqlarımıza əsaslanır". İyunun 30-da keçirilən iclasda baş verənlər bəzi əməkdaşlara böyük təsir edib. Həmçinin şayiələr yayılıb ki, şirkət bazarla mübarizə apardıqca, şirkət əməkdaşları "Meta"nın top menecmentinə inamını itirib. Aparılan sorğuda "Meta" işçilərinin yalnız 39 faizinin şirkətin gələcəyi ilə bağlı nikbin olduğunu dediyi vurğulanıb ki, bu da olanları sübut edir.

**Turan**



# Məhkəmə tarixə düşdü

## Nərmin Quliyevanın qətli ilə bağlı Tovuzda 25 evə baxış keçirilib

**Gəncə Ağır Cinayətlər Məhkəməsində Tovuz rayonunun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanın qətlə yetirilməsində təqsirləndirilən İlkin Süleymanovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Hakim Dadaş İmanovun sədrliyilə keçirilən prosesdə sənədlərin tədqiqi mərhələsi başlayıb. Daha sonra İlkin Süleymanovun ibtidai istintaqda dindirildiyi protokol elan olunub. Həmin vaxt şahid qismində ifadə verən İ. Süleymanov bildirib ki, küçəyə siqaret çəkməyə çıxanda evləri ilə üzbəüzdə yanğının olduğunu görüb. O, hadisə yerinə yaxınlaşıb və meyitin yandığının şahidi olub. İlkin Süleymanov hadisədən xəbərsiz olduğunu bildirib.

İlkin Süleymanovun evinə baxış keçirilərək onun paltarlarının götürülməsi də məlum olub. Evə baxış keçirilərkən heç bir şübhəli fakt aşkarlanmayıb.

Prosesdə Nərminin üzərində olan paltarların siyahısı elan edilib. Yanvarın 9-da Dondar Quşçu kəndində 25 evə baxış keçirilməsi barədə sənədlər elan olunub.

Proses avqustun 24-də davam etdiriləcək.

İttihama görə, 1973-cü il təvəllüdlü İlkin Süleymanov Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 133.2.1 (oğurlanmış şəxsə əzab vermə), 133.2.4 (yetkinlik yaşına çatmayan, köməksiz vəziyyətdə olan şəxsə əzab vermə), 144-cü (adam oğurluğu) maddələrilə təqsirləndirilib.

O, Nərmin Quliyevanı oğurlayaraq, 47 gün sonra qətlə yetirməkdə günahlandırılır.



## Bu il İranda azı 251 nəfər edam olunub

**"Bu il yanvarın 11-dən iyulun 9-dək İranda 251 nəfər edam olunub".**

"Report" "İran İnternational"a istinadən xəbər verir ki, məlumatı "Amnesty International" və Abdullah Rəhman Brumand Fondu yayıb.

Bildirilib ki, ölüm hökmlərinin icrası belə davam edərsə, bu, 2021-ci ilin 314 edam göstəricisini ötəcək.

Məlumata görə, bu il edam olunanlardan 86-sı narkotik maddələrin satışı və yayılması ilə bağlıdır. Beynəlxalq qanunlara əsasən, bu cinayəti törədənlər edam olunmurlar.

Bildirilib ki, 2021-ci illə müqayisədə dünyada edamların sayı artıb. Bunun səbəblərindən biri İranda ölüm hökmlərinin icrası göstərilib.

BMT-nin Baş katibi Antonio Qutteriş bu ilin əvvəlindən bəri İranda edamların artmasından narahat olduğunu vurğulayıb.

## Son 300 ildə ən iri çəhrayı almaz aşkar edilib

### Çəkisi 170 karat olan almaz beynəlxalq hərracda çox yüksək qiymətə satılacaq




**Avstraliyanın Cənubi Afrikada kəşfiyyat və almaz hasilatı ilə məşğul olan "Lucapa Diamond Company" dağmədən şirkəti Anqoladakı Lulu şaxtasında xalis çəhrayı almaz tapıldığını elan edib.**

Azərtac xəbər verir ki, şirkətin məlumatına görə, çəkisi 170 karat olan və "Rosa-du-Lulu" adı verilmiş bu almaz son 300 ildə aşkar edilmiş ən iri almazdır. Anqolanın mineral ehtiyatlar və neft naziri Diamantinu Azevedo bəyan edib ki, rekord ölçülü bu çəhrayı almazın aşkar edilməsi Anqolanın dünya əhəmiyyətli almaz hasilatı mərkəzi olduğunu təsdiq edir. "Rosa-du-Lulu" beynəlxalq hərracda çox yüksək qiymətə satılacaq.

2017-ci ildə çəkisi 59,6 karat olan "Çəhrayı ulduz" brilyantı Honkonq hərracında 71,2 milyon ABŞ dollarına və ya təqribən 70 milyon avroya satılıb. "Çəhrayı ulduz" indiyə qədər tarixdə ən bahalı brilyant kimi qalır.

## 8 il sonra üzə çıxdı

### Sevgilisini sirr kimi saxlayırdı



**Türkiyəli aktyor Kaan Urgancıoğlunun illərdi gizli qalan münasibəti bilinib.**

**Lent.az-a istinadən bildirir ki, aktyoru izləyiciləri "Yargı" serialında bərabər oynadığı Pınar Dənizlə yaraşdırır, hətta sevgili olduqlarını sanırdılar. Amma Kaan Urgancıoğlunun 8 ildir ki, sirr saxladığı sevgilisi üzə çıxıb.**

**Belə ki, şəxsi həyatı ilə gündəm olan aktyorun aktrisa Zeynep Oymakla 8 ildir ki, eşq yaşadığı məlum olub.**

**Münasibətlərini gözdən uzaqda yaşayan ikili motosiklet ilə Etilerdə görünüblər.**

## Hadisə həyat yoldaşı ilə istirahətə yollanıb

### Onlar 7 gün qalacaqları villa üçün 72 min manat ödəyiblər



**Türkiyəli müğənni Hadisə həyat yoldaşı Mehmet Dinçərlərlə birgə istirahətə yollanıb.**

**Axşam.az xəbər verir ki, cütlük tətil üçün Bodrumu seçib. İkili 7 gün qalacaqları villa üçün 764 min 400 lirə (təxminən 72 min 421 manat) ödəyiblər.**

***Qeyd edək ki, Hadisəylə Mehmet aprelin 30-da nikaha girib.***

## Sertab Erener koronavirusa yoluxub



**Türkiyənin məşhur müğənnisi Sertab Erener koronavirusa yoluxub.**

**Bizim.media bildriir ki, COVİD-19 testi müsbət çıxan sənətçi hazırda ev şəraitində müalicə alır.**

**Qeyd edək ki, koronavirus səbəbindən onun iyulun 27-də Cəmil Topuzlu Açıq Hava Teatrında keçirilməsi planlaşdırılan konserti təxirə salınıb.**

## Britni Spirs qayıdır



**Məşhur müğənni Britni Spirs uzun fasilədən sonra səhnəyə qayıdır.**

**Axşam.az xəbər verir ki, o fəaliyyətini britaniyalı müğənni Elton Conla ifa etdiyi duetlə davam etdirəcək. Sənətçilər artıq birlikdə "Tiny Dancer" adlı mahnının yeni versiyasını hazırlayırlar.**

**Mahnı gələn ay dinləyicilərə təqdim olunacaq.**

***Qeyd edək ki, Britni Spirslə ötən ay nişanlısı Sem Askeriylə ailə qurub.***



# İnsanlardan küsüb meşəyə qaçdı

### İndi hər kəs onunla şəkil çəkdirmək üçün növbəyə durur





**Bir sənədli filmlə həyatı dəyişən Ellie Zanzimanın çox maraqlı həyat hekayəsi var.**

1999-cu il təvəllüdlü Ellie Zanziman digər körpələrdən xeyli fərqlənirdi. Balaca Ellinin başının normadan çox kiçik olması onu üzürdü. O, mikrosefaliya xəstəliyindən əziyyət çəkirdi. Bu səbəbdən fiziki görünüşünə görə həyatının hər sahəsində təhqirə məruz qalıb. Həm də Ellinin məktəbə getməsinə icazə verilmədi, çünki kənd ağsaqqalları onun təhsil almaq üçün zehni qabiliyyətinin olmadığına inanırdılar. Təhsil almasına icazə verilməyən və həyatının hər sahəsində zorakılığa məruz qalan Zanziman kəndini tərk edərək, meşədə yemək axtarmağa başlayır. O, görünüşünə görə həyatını tarmar edən insanlardan qaçıb doğma Ruandaya qayıtmışdı. İnsanlardan uzaq olmaq, təbiətlə tam təmasda yaşamaq da onun danışmağı unutmasına səbəb olub. Yaxın keçmişdə Zanzimanın vəhşi heyvanlarla birlikdə ot və banan yediyini görmək mümkün idi. Zanziman müəyyən mənada Rudyard Kiplinqin hekayəsindəki əsas personaj Mauqliyə bənzəyirdi. Həyat tərzinə və görünüşünə görə ona "meymun" deyirdilər. Lakin çəkiliş qrupu Afrikaya onun haqqında sənədli film çəkmək üçün gələndə Ellinin həyatı kəskin şəkildə dəyişdi. Sənədli film yayımlandıqdan sonra Afrimax TV, Zanziman və anası üçün yeni bir həyat qurmaq üçün dünyanın hər yerindən tamaşaçılardan böyük ianə alan GoFundMe səhifəsi yaratdı. Bütün bu ianələr onu Ruandadakı Ubumve İcma Mərkəzindəki xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün məktəbə göndərmək üçün istifadə olunub. Elli indi ailəsi ilə birlikdə kəndə qayıdıb və təhsil almağa başlayıb.

Sənədli filmin nümayişindən sonra həyatı kəskin şəkildə dəyişən gənclə şəkil çəkdirmək üçün insanlar növbəyə düzülür. Zanzimanın anası deyir: "Oğlumun bu cür dəyişməsi sözün əsl mənasında möcüzədir. Onu ələ salırdılar, mən də tez-tez onun arxasınca qaçırdım. O, indi həmyaşıdları ilə birlikdə məktəbdədir və mən çox xoşbəxtəm".

**Turan**



## "Facebook"un qurucusu işçisinin sualından dəhşətə gəldi

### İyunun 30-da keçirilən iclasda baş verənlər bəzi əməkdaşlara böyük təsir edib

**"Facebook"un qurucusu və ana şirkət olan "Meta"nın baş direktoru Mark Zukerberq işçiləri ilə görüşündə ona verilən suala sərt reaksiya verib. Anidən çılğına dönən Zukerberqi hirsləndirən sual həm də onu çaş-baş salıb.**

Dünyada milyardlarla insanın istifadə etdiyi "Facebook", 4 fevral 2004-cü ildə Mark Zukerberq tərəfindən təsis edilib. Harvard Universitetində təhsil alan Mark Zukerberq saytı yalnız Harvard Universitetinin tələbələri üçün qurub. Buna görə də başlanğıcda yalnız Harvard tələbələri o vaxtlar deyildiyi kimi "The Facebook"a üzv ola bilərdilər. "Facebook"un Harvardda sürətlə populyarlaşdığını görən Zukerberq onu kampusdan çıxarmaq qərarına gəlib.

Tezliklə Boston ətrafındakı digər universitetlərə yayılan "Facebook" şəbəkəsinin qeydiyyatı o qədər sürətlə artdı ki, cəmi bir il ərzində ABŞ-ın demək olar ki, bütün universitetləri "Facebook"a daxil oldu. Yarandığı ilk illərdə yalnız universitet tələbələri üçün mövcud olan "Facebook", illər keçdikcə bütün dünyaya yayılaraq hər kəsin istifadə edə biləcəyi platformaya çevrilib. Zamanla bir çox sosial media tətbiqi "Facebook" tərəfindən satın alındı və böyük bir sosial media nəhənginə çevrildi.

Ötən aylarda "WhatsApp", "Instagram", "Messenger" və "Oculus VR" kimi proqramların yer aldığı dünyaca məşhur sosial media şirkəti Facebook-un taleyində dəyişiklik olub. Şirkətin baş direktoru "Facebook" Inc altındakı bütün tətbiqlərin artıq "Meta" brendi altında yerləşdiriləcəyini açıqladı. Mark Zukerbeq, "Facebook şirkəti artıq metavers şirkətdir" deyərək "Facebook"un "Meta" şirkətinin qanadının altına keçdiyini rəsmən açıqladı.

Bütün müraciətləri yeni bir dam altında toplamaq, marka adını və simvolu dəyişdirmək yaxşı bir addım olacağı düşünülürdü. Bununla belə, "Meta" son aylarda bazarda böyük uğursuzluqla üzləşdi. Məlumatlara görə, şirkətin bu il dəyərinin 50 faizini itirdiyi müəyyən edilib. Beləliklə, "Meta" məlumatlara sərfəli investisiya etmək üçün işə qəbulu dondurmaq və digər xərcləri azaltmaq kimi tədbirlər görməyə başladı.

İyunun 30-da şirkətin iclaslarından birində Mark Zukerberq bildirib ki, "Meta" bu il mühəndislər üçün işə götürmə planlarını ən azı 30 faiz ləngidir, əvvəlcə nəzərdə tutduğu 10.000 işçi əvəzinə 6.000 - 7.000 işçi işə götürəcək. İclasda Zukerberq xərclərin azaldılmasının səbəblərini açıqladı və onların yaşadıqları son bazar geriləməsinin "yaxın tarixdə ən pis hadisələrdən biri ola biləcəyini" vurğuladı.

*(Davamı səh: səh-7 də)*

**Turan**

## Bill Qeyts açıqladı

### İqlim texnologiyaları ilə məşğul olanlar daha çox pul qazanacaq



**Dünyanın ən zəngin insanlarından biri olan Bill Qeyts gələcəyin peşəsinin nə olacağı ilə bağlı açıqlamalar verib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, "Microsoft"un həmtəsisçisi B.Qeyts iqlim böhranının təsirlərinə diqqət çəkərkən onun məhv edilməsinin dünyanı viran qoyacağını deyib. İqlim texnologiyası sahəsində çalışanların gələcəkdə böyük gəlirlər qazanacağını bildirən Qeyts, bu sektorda çalışanların "Google", "Microsoft", "Tesla" və "Amazon" kimi şirkətləri geridə qoyacağını bildirib.

İnsanların iqlim dəyişikliyi və iqlim texnologiyaları ilə maraqlanmalı olduğunu deyən Qeyts, xüsusilə, elektrik avtomobilləri, akkumulyator texnologiyaları və hidrogen mühərriklərinin əhəmiyyət qazanacağını bildirib.

"İqlim sərmayələri hələlik risklidir, lakin önümüzdəki illərdə ön plana çıxacaq. İqlim texnologiyası asan bir sahə deyil. Bu, riskli bir işdir, lakin səbir edənlər əldə etdikləri qazanclara inana bilməyəcəklər",- deyə o, onlayn konfransda bildirib.

**Çimnaz Şahlar**

## Sərinləşdirici içkilər xərçəngə səbəb olur

### Onların tərkibində qatqı maddələri, boyalar və çoxlu şəkər var



**Həddən artıq sərinləşdirici içkilər təkcə piylənməyə deyil, hipertoniya, diabet, hətta xərçəngə səbəb ola bilər.**

Bu barədə diyetoloq, tibb elmləri doktoru, Samara Elmi-Tədqiqat Dietologiya və Pəhriz Terapiya İnstitutunun direktoru Mixail Qinzburq deyib. O, izah edib ki, mağaza piştaxtalarındakı limonadların böyük əksəriyyəti çox şirindir. Onların tərkibində qatqı maddələri, boyalar və çoxlu şəkər var. (publika.az)

"Bu, tamamilə zərərli məhsuldur. Maye halında olan məhsulun tərkibindəki şəkər daha zərərlidir. Maye şəkər orqanizm tərəfindən tez sorulur və müəyyən məqamda onun qanda və toxumalarda konsentrasiyası yüksələ bilər.

Nəticədə intoksikasiya, iltihab, şəkər molekullarının zülal molekullarına bağlanması, yəni qlikasiya yaranır. Bütün bu proseslər xərçəngə qədər son dərəcə təhlükəli xəstəliklərin inkişafına səbəb olur. Yaşla bağlı xəstəliklər aktivləşir, piylənmə başlayır. Qazlı içkilərdən sui-istifadə edən insanlar şəkərli diabet, ateroskleroz, hipertoniya və bəzi şiş növləri kimi xəstəliklərə daha çox həssasdırlar. İnsan belə şirin içkilərə meyllidir, amma bu, şəkərdir, ondan su ala bilməzsiniz. Əgər sərin və şirin sudan həzz almaq istəyirsinizsə, limon, zəncəfil və təbii meyvələrin əlavə edilməsi ilə öz əlinizlə limonadlar hazırlamağı tövsiyə edirəm, ancaq şəkərsiz", - həkim vurğulayıb.